Səs
XÜSUSİ BURAXILIŞ
№ 080 (6763)
10 may 2023-cü il.
Qiyməti 60 qəpik

# 100 ilin zirvəsində



# Ən böyük AZƏRBAYCANLI



**Azərbaycanın zəngin dövlətçilik və möhtəşəm inkişaf tarixinin ən parlaq və şərəfli dövrü Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin adı bütün varlığını doğma xalqına xidmətə həsr edən müdrik siyasətçi və dövlət rəhbəri kimi Azərbaycanın şanlı tarixinə qızıl hərflərlə yazılıb. Tarix də bu gerçəkliyi sübut etməkdədir. Bu gerçəklik möhkəm əsaslara söykənən dövlətçilik, azərbaycançılıq ruhunun, ideologiyasının bariz təcəssümü olaraq şanlı tariximizə fəxarət hissi ilə yazılıb. Heydər Əliyev xalqımızın milli-ideoloji baxışlarını bilavasitə azərbaycançılıq siyasəti ilə sintezləşdirərək, dövlətimizin və dövlətçiliyimizin möhkəm təməllər üzərində bərqərar olmasını təmin etmişdir. Artıq bu təməl dövlətimizin ideoloji prinsipidir və bu prinsip ölkəmizin daha da qüdrətli, güclü olması maraqlarına dayanır.**

Ümummilli Lider məhz Azərbaycana rəhbərlik etdiyi illərdə milli-mənəvi dəyərlərin, milli ruhun qorunması, kadrların milliləşdirilməsi, azərbaycançılıq ideologiyasının sistem halına salınması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirmişdir. Heydər Əliyevin respublikamıza birinci rəhbərliyi dövründə Azərbaycanın sosial-iqtisadi, mədəni yüksəlişi üçün həyata keçirilən tədbirlər, milli şüurun oyanışı istiqamətində gördüyü işlər olmasaydı, bu gün Azərbaycanın müstəqil xəttə malik suveren dövlət kimi mövcudluğundan danışmaq çətin olardı.

XX əsrin 90-cı illərində dövlətçiliyini bərpa edən, azadlığına qovuşan Azərbaycan xalqının milli inkişaf yolunun və ideologiyasının formalaşması da məhz Ulu Öndər Heydər Əliyevin müstəqil respublikamıza rəhbərliyi dövrünə təsadüf edir. Bütün ruhu, qanı, canı ilə özünü azərbaycanlı sayan Ümummilli Lider cəmiyyətin bütövləşməsi, azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı amilinə çevrilməsi istiqamətində mühüm işlər görərək ümumxalq birliyinin dərin politoloji və nəzəri əsaslarını irəli sürdü. Böyük strateq azərbaycançılığın tarixən formalaşmış ayrı-ayrı komponentlərini vahid sistem və konsepsiya halına gətirərək onu dövlət idarəçiliyinin elmi-nəzəri əsasına çevirdi. Məhz Heydər Əliyev dühasının səyi ilə azərbaycançılıq mahiyyətcə real məzmun daşıyaraq praktikada realizə imkanları qazandı.

Azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirən tarixi-siyasi amillərin təsnifatını, xaricdə yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının qorunması sahəsində dövlətin qarşısında duran vəzifələri, onların Azərbaycana münasibətdə üzərinə düşən mənəvi öhdəlikləri, habelə azərbaycanlı anlayışının sosial-fəlsəfi məzmununu müəyyənləşdirən konsepsiyadır. Azərbaycançılıq millətindən asılı olmayaraq, özünü azərbaycanlı sayan vətəndaşların həmrəyliyi üçün möhkəm istinad mənbəyidir. Bu ideologiyanın xarakteri həm də bütün dünyaya səpələnmiş 50 milyondan artıq azərbaycanlını vahid ideallar naminə səfərbər etmək qüdrəti ilə müəyyən olunur.

## "Fəxr edirəm ki, mən azərbaycanlıyam..."

Azərbaycançılığı şərtləndirən ən mühüm amillərdən biri də milli ənənədir. Milli düşüncə sisteminin genetik qaynağı olan azərbaycançılığın inkişaf stimulyatoru da məhz ənənədir. Bu, xalqın keçdiyi zəngin tarixi yolun mütərəqqi yaşam təcrübəsini özündə qoruyub saxlayır. Azərbaycançılıq ideologiyası həm də xalqın tarixən tapındığı mütərəqqi ənənələri gələcək nəsillərə ötürən mənəvi körpüdür. Ulu öndər daim vurğulayırdı ki, azərbaycançılıq ideologiyası real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir. Azərbaycançılıq milli mənsubiyyəti, milli-mənəvi dəyərləri qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək deməkdir.

Ulu Öndər Heydər Əliyev məşhur bir kəlamı var: "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".

Ulu Öndər Heydər Əliyev ilk növbədə böyük azərbaycanlı idi və Onun bizlərə miras qoyduğu azərbaycançılıq, milli mənəviyyatın qorunub saxlanılması ideologiyası xalqımızın, dövlətçiliyimizin möhkəmləndirilməsində əhəmiyyətli rolunu oynayıb. Məhz Ulu Öndərin uzaqgörənliyi, xalqına və dövlətinə verdiyi sonsuz dəyəri nəticəsində Azərbaycanda xalq-iqtidar birliyi formalaşdırılmağa başlandı və qüdrətli, güclü dövlətin təməli qoyuldu. Əlbəttə ki, bu danılmaz reallıq ölkəmizin çoxşaxəli inkişafında, sabitliyə doğru irəliləməsində, dünya birliyində layiqli yer tutmasında və bu birlikdə yer almasında öz əvəzsiz, müsbət təsirlərini göstərdi. Çünki o dövrlərdə məhv olmaq, müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalan Azərbaycan xalqı əminliklə öz Liderinə etimad göstərdi.

Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq məfkurəsi ideyasındakı təməl prinsiplərindən biri də milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində qurduğu siyasi konsepsiyası olub ki, bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev bu məfkurənin qorunub-saxlanılması, gələcək nəsillərə ötürülməsi ilə bağlı qərarlı addımlar atır, bunun millətin, dövlətin, xalqın iradəsinə xas olduğunu bütün çıxışlarında vurğulayır. Hər bir xalqın özünəməxsus milli-ideoloji baxışı var və Ulu Öndər Heydər Əliyev bu mühüm məqamı bilavasitə dövlətçilik, Azərbaycançılıq siyasəti ilə sintezləşdirərək, möhkəm təməlləri qoymuş oldu. O cümlədən ölkəmizin başçısı cənab İlham Əliyev həmin siyasəti daha da təkmilləşdirir, milli dəyərlərimizin qorunaraq saxlanılması barədə tezislərini bütün çıxışlarında vurğulayır, xüsusilə gənclərimizin həmin istiqamətdə gələcək həyatlarını qurmalarına mühüm tövsiyələrini verir. Bu isə dövlətimizin ideoloji prinsipidir və bu prinsip ölkəmizin daha da qüdrətli, güclü olması maraqlarına söykənir. Əbəs deyil ki, müxtəlif hadisələr baş verərkən Heydər Əliyevin bir çağırışı ilə on minlərlə insan Onun səsinə səs verir, Liderinin ətrafında birləşirdi. Bax bu gerçəklik möhkəm əsaslara söykənən dövlətçilik, Azərbaycançılıq ruhunun, ideologiyasının bariz təcəssümü idi.

## Azərbaycançılıq məfkurəsinin davamçıları

Bu gün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, xanım Mehriban Əliyevanın fəaliyyəti əsasında da qeyd edilən reallıqlar dayanır və bu reallıqlar, əlbəttə ki, bütövlükdə milli-mənəvi dəyərlərin, milli məfkurənin, azərbaycançılıq ideologiyasının təməllərini möhkəmləndirir. Mehriban xanım Əliyevanın taleyüklü məsələlərin həllində daim öndə olması, ölkəmizin, xalqımızın səsinin dünya birliyinə çatdırılması kimi faktorlar dövlət siyasətimizin tərkib hissəsinə çevrilib və söz yox ki, bu siyasətin mərkəzində xalqın dəstəyi, sevgisi amili də dayanmaqdadır.

*Ardı Səh. 3*

Əvvəli Səh. 2

Azərbaycan xalqının və dövlətinin tükənməz dəyərinə, milli ideologiyasına çevrilən azərbaycançılığın təbliğində Azərbaycanda humanizm və tolerantlığın simvoluna çevrilən, Azərbaycan Respublikasının I Vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyeva önəmli rol oynayan dövlət xadimi kimi bu istiqamətdə saysız iş görüb, layihələr həyata keçirib. Mehriban xanım Əliyeva azərbaycançılıq məfkurəsinin, multikulturalizmin Azərbaycan modelinin təbliğinə, habelə ölkədə sosial rifahın yüksəldilməsinə, elm, təhsil, mədəniyyət, idman sahələrinin inkişafına əhəmiyyətli töhfə verib, məhz onun təşəbbüsü ilə həyata keçirilən çoxsaylı layihə milli dəyərlərin qorunması və bu dəyərlərin ictimai şüurda möhkəmlənməsinə xidmət edir. Birinci xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun da bu istiqamətdə əməyi, rolu danılmazdır.

Heydər Əliyev Fondunun azərbaycançılıq ideologiyasının təbliği, beynəlxalq aləmdə tanıdılması ilə bağlı gerçəkləşdirdiyi layihələrin hər biri ölkəmizin beynəlxalq imicinə müsbət təsir göstərir. Qeyd etdiyimiz kimi, fondun həyata keçirdiyi layihələrdə azərbaycançılıq, multikulturalizm kimi dəyərlər əsas dəstxətti təşkil edir.

Azərbaycan xalqının Böyük oğlu, milli-dövlətçilik və Azərbaycançılıq məfkurəsinin banisi Heydər Əliyev haqqında fikir bildirmək, Onun haqqında düşüncələri bölüşmək çətin və məsuliyyətli bir işdir. Belə ki, ömrünü siyasi fəaliyyətə, dövlət maraqlarına, xalqına həsr edən Heydər Əliyev faktoru dünyanın nüfuzlu siyasətçiləri fonunda daim zirvələrdə yer alıb. Məhz bu baxımdan, Heydər Əliyev deyərkən, ilk olaraq xarizmatik Lider faktoru önə çıxır. Və bu gün Onun böyüklüyü, əbədiliyi özünü daha qabarıq, daha geniş fonda əks etdirməkdədir. Əbəs deyil ki, bu gün Azərbaycan xalqının xoşbəxtlik meyarlarından biri də Heydər Əliyev kimi Liderə, xilaskara malik olmaq amili ilə ölçülməkdədir. Belə bir meyar isə hər xalqa, hər millətə nəsib olmur. Və əgər bu gün xalqımızın Ümummilli Lideri Heydər Əliyev barədə fikirlərimizi bölüşürüksə, ilk növbədə Onun Böyük Azərbaycanlı olduğunu məxsusi olaraq vurğulamalıyıq. Heydər Əliyev deyərkən Azərbaycan, Azərbaycan deyərkən isə Heydər Əliyev gerçəkliyi parlaq günəştək aydın səmalarımızdan üzərimizə nur yağdırır - O, yaşayır, yaşadılır və öz əbədiliyi ilə, atalıq nuru ilə gələcək yollarımıza işıq saçır. Bu yolu müəyyən etmək üçün, bu gələcəyi təmin etmək üçün Heydər Əliyev bütün mənalı həyatı boyunca sözün əsl mənasında çarpışdı, mübarizə apardı, dünyaya qətiyyətin, fədakarlığın nə olduğunu sübuta yetirdi. Bizlər - Vətən sevdalısı olaraq Heydər Əliyevin bizlərə miras qoyduğu Azərbaycançılığı, milli-mənəviyyatın qorunub-saxlanılması ideologiyasını, dövlətçilik ənənəsini yaşatmaqdayıq.

## Azərbaycançılıq və siyasi konsepsiya

Ulu Öndərin uzaqgörənliyi, xalqına və dövlətinə verdiyi sonsuz dəyəri nəticəsində təlatümlər içində boğulan, parçalanma təhlükəsi ilə üz-üzə qalan Azərbaycanımızda möhkəm xalq-iqtidar birliyi formalaşdırılmağa başlandı və qüdrətli, güclü dövlətin təməli qoyuldu. Bu tarixi gerçəklik özünü ən yüksək səviyyədə tərənnüm etdirməkdədir. Ötən əsrin 90-cı illərinin əvvəllərində - ağır dövrlərdə məhv olmaq, müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalan Azərbaycan xalqı yeganə çıxış yolunu Heydər Əliyevdə gördü və əminliklə öz Liderinə etimad göstərdi. İlk növbədə, bu sonsuz etimad hər bir azərbaycanlının gələcəyə ümidini itirməməsinə, daha dəqiq desək, inamlı baxışında öz təşəkkülünü tapmış oldu. Bu təşəkkül və təcəssüm hələ ilkin kövrək addımların başlanğıcı idi, qarşıda isə həmin addımları möhkəmləndirmək məsuliyyəti dayanırdı. Ən əsası isə Heydər Əliyev faktoru Azərbaycançılıq məfkurəsinin təməlini qoymuşdu, dövlətimizin, xalqımızın xilasının da kökündə həmin reallıq ali mücəssəmə mənzərəsində xarakterizə edilə bilər. Beləliklə, Ulu Öndər Heydər Əliyevin Azərbaycançılıq məfkurəsi ideyasındakı təməl prinsiplərindən biri də milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində qurduğu siyasi konsepsiyası oldu. Qarabağımızın düşmən işğalından azad edilməsi ilə nəticələnən 44 günlük Zəfər yolumuzun da təməlində məhz bu tarixi məfkurə, ideyaya sadiqlik, layiqli varislik dayanır.

Bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev bütün çıxışlarında bu məfkurənin qorunub-saxlanılması, gələcək nəsillərə ötürülməsi ilə bağlı fikirlərini ifadə edir, qərarlı addımlar atır, bunu millətin, dövlətin, xalqın iradəsinə xas olduğunu vurğulayır. Sirr deyil ki, hər bir xalqın özünəməxsus milli-ideoloji baxışı var və Ulu Öndər Heydər Əliyev bu mühüm məqamı bilavasitə dövlətçilik, Azərbaycançılıq siyasəti ilə sintezləşdirərək, möhkəm təməlləri qoymuş oldu. O, yaxşı bilirdi ki, başa çatdıra bilməyəcəyi işlərini Onun layiqli varisi davam etdirəcək, başa çatdıracaq və yeni məqsədlərə doğru irəliləyəcək. Bu baxımdan, Heydər Əliyev həyatının bütün incəliklərinə real baxış prizmasından yanaşırdı və bilirdi ki, qarşıda görüləcək çox çətin işlər var və bu işlərin realizə olunmasını yalnız İlham Əliyev həyata keçirmək gücündə, qüdrətindədir. Bu təməl dövlətimizin ideoloji prinsipidir və bu prinsip ölkəmizin daha da qüdrətli, güclü olması maraqlarına dayanır. Tarix də bu gerçəkliyi sübut etməkdədir. Əbəs deyil ki, müxtəlif siyasi-ictimai hadisələr baş verərkən, Heydər Əliyevin bir çağırışı ilə yüzminlərlə insan Onun səsinə-səs verir, Liderinin ətrafında birləşirdi. Bax, bu gerçəklik möhkəm əsaslara söykənən dövlətçilik, Azərbaycançılıq ruhunun, ideologiyasının bariz təcəssümü olaraq şanlı tariximizə fəxarət hissi ilə yazılıb.



## Azərbaycançılıq dünya birliyinə inteqrasiyasının əsas ideyası kimi

Bu gün Azərbaycanın əsas prioritetlərindən biri milli adət-ənənələrimizin təmin olunması şərtilə dünya birliyinə inteqrasiya etməsidir. Bu inteqrasiyada Azərbaycanın öz yerini tapması, eyni zamanda, milli eyniyyətini qoruyub saxlaması müstəsna əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Azərbaycan xalqı əsrlər boyu müstəqillik həsrətində idi. Biz müxtəlif dövrlərdə başqa-başqa dövlətlərin tərkibində yaşamışıq. Amma öz milli xüsusiyyətlərimizi itirməmişik. Nəyin hesabına? Onun hesabına ki, öz ana dilimizi, mədəniyyətimizi saxlaya bilmişik, ədəbiyyatımız inkişaf edib, milli ənənələrimiz qorunub saxlanılıbdır. Budur, hər bir xalqın milli identifikasiyasını şərtləndirən əsas məsələlər".

Azərbaycançılıq ideyası qloballaşma şəraitində universal dəyərlərin qorunmasını önəmli hesab edir və ölkəmizin müasir milli modernləşmə yolunu bu dəyərlərin bərqərar olduğu Avropa məkanına inteqrasiyada görür. Azərbaycançılıq ideyası universal dəyər olan insan hüquqlarının qorunması, vahid Avropa məkanında beynəlxalq təhlükəsizliyin təmin edilməsi, eyni zamanda ölkələrin ərazi bütövlüyü prinsipi və digər vacib dəyərləri nəzərdə tutaraq qloballaşmanı müasir dünyanın təbii inkişaf prosesi hesab edir.

Azərbaycançılığın əsas elementlərindən biri olan vətəndaşlıq özündə vətəndaşın siyasi, mənəvi, hüquqi, sosial keyfiyyətlərini cəmləşdirir. Azərbaycan Respublikası Konstitusiyasının 52-ci maddəsinə görə, "Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır". İdeoloji baxımdan fərdin cəmiyyətə münasibəti və bu münasibətdə mövqeyi maraq kəsb edir. Vətəndaşlıq azərbaycançılıq kontekstində fərdin öz hüquq və vəzifələrini dərk edərək ölkədə yaranan ictimai-siyasi münasibətlərə mövqeyi kimi başa düşülür.

Azərbaycançılıq ideologiyasının təkamülündə İlham Əliyev mərhələsi özünəməxsus dinamizmi ilə bu ideologiyanı zənginləşməkdə, milli ictimai şüurun əsaslarını müəyyənləşdirməkdə və Azərbaycan xalqının dünya birliyindəki mövqelərini inamla yüksəltməkdədir. Azərbaycançılıq konsepsiyası bu gün cəmiyyətin inkişafının ideya təməlini təşkil edir. Prezident İlham Əliyev azərbaycançılıq məfkurəsini dövlətçiliyimizin ideoloji əsası kimi xarakterizə edərək demişdir: "Bizi əsrlər boyu bir millət, bir xalq kimi qoruyan, saxlayan dəyərlərimiz olmuşdur. Bu gün bu məsələyə çox böyük diqqət göstərilir. Bu gün qloballaşan, çətinliklərlə üzləşən dünyada milli dəyərlərimiz bizim dövlətçiliyimizin təməlini təşkil edir. Bizim dövlətçiliyimizin çox möhkəm ideoloji əsasları vardır. Azərbaycançılıq məfkurəsi bizim əsas ideoloji dayağımızdır".

Azərbaycançılıq ideologiyası ölkəmizi yad təzahürlərdən, yad təsirlərdən qorumuş olmaqla bərabər mayasında özünüdərk, keçmişimizi dərindən öyrənmək və sağlam gələcək naminə birlikdə mübarizəni qoruyub saxlayır. Azərbaycançılıq ideologiyası həm də xalqın tarixən tapındığı mütərəqqi ənənələri gələcək nəsillərə ötürən mənəvi körpüdür.

***Bəhruz QULİYEV,***
***SƏS Media Qrupun rəhbəri,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***





# UŞAQLIQ VƏ GƏNCLİK İLLƏRİ

## 1923-1955

Azərbaycan xalqının taleyində və tarixində silinməz izlər qoymuş Ulu Öndər Heydər Əliyev sözün əsl mənasında, Ən Böyük Azərbaycanlı idi. Ölkənin, xalqın, Azərbaycan tarixinin, onun dövlətçiliyinin böyük təəssübkeşi olan Heydər Əliyev XX yüzilliyin sonunda öz müstəqilliyini bərpa edən Azərbaycanın xilaskarı oldu, beləcə ölkəmiz parçalanmaq, məhv olmaq təhlükəsindən yan keçdi. Dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi istər sovet məkanında, istərsə də müstəqillik illərində bənzərsiz fəaliyyətilə Azərbaycanın iqtisadi, sosial və mədəni tərəqqisinə, xalqımızın firavanlığı və xoşbəxtliyi, ölkəmizin dünya birliyində özünəməxsus layiqli yer tutmasına mühüm töhfələr vermişdir. Ulu Öndər Heydər Əliyevin yüksək peşəkarlıqla işləyib hazırladığı milli dövlətçilik strategiyasının əsasını müstəqil Azərbaycanın iqtisadi qüdrətinin dirçəldilməsi, artırılması və möhkəmləndirilməsi təşkil edirdi. Onun ölkə iqtisadiyyatının hərtərəfli inkişafı, qloballaşan dünya iqtisadiyyatına inteqrasiyası sahəsində, həqiqətən, misilsiz fəaliyyəti nəticəsində ölkəmiz sürətli tərəqqi yoluna qədəm qoymuşdur. Azərbaycan tarixində misilsiz xidmətləri olan Ulu Öndərin qeyri-adi bacarığı, istedadı, Azərbaycana bağlılığı, vətənə sevgisi hələ uşaqlıq illərində özünü büruzə vermişdir. Kiçik yaşlarından hamının sevimlisinə çevrilən Heydər Əliyev adı ilə, əqidəsi ilə, böyük siyasətçi olması ilə Azərbaycanı bütün dünyaya tanıtdı.

### 10 MAY 1923-CÜ İL. MÜASİR TARİXİMİZƏ BÖYÜK HƏRFLƏRLƏ YAZILAN GÜN

Ancaq Ulu Öndərin həyatının qəhrəmanlıq anlarını, zamanı qabaqlamaq, tarix yaratmaq bacarığını yalnız onun rəhbər vəzifələrdə çalışdığı illərlə ölçmək olmaz. Heydər Əliyevin mənalı həyatının hər günü, hər anı unudulmaz tarixi hadisələrlə zəngindir. İşıqlı yaz günü, bahar nəfəsli bir gündə müstəqil Azərbaycanın Qurucusu və Memarı, Dahi Şəxsiyyət, Müdrik Dövlət Xadimi olacaq bir uşaq dünyaya gəlir. 10 may 1923-cü il. Müasir tariximizdə böyük hərflərlə yazılan gün. Naxçıvan şəhərində dəmiryolçu ailəsində dünyaya gələn bir körpə zaman ötəcək dünyaya böyük bir siyasətçi kimi adını həkk edəcəkdir. Bu elə bir zaman idi ki, Naxçıvan çox qədim adətləri ilə yanaşı, müasirliyə meyl edən intellektual zəkalarla qüdrətli olan bir məkan idi. Orada böyüyüb boya-başa çatmaq, mütəfəkkirlər diyarında təlim-tərbiyə almaq, böyük ədiblər diyarından su içmək həqiqətən də, gələcək həyat üçün qoyulan təməlin əsasında bir məktəb idi. Çoxuşaqlı bir ailədə doğulan Heydər Əliyev o ailədə 8 övladdan dördüncüsü idi. Atası Əlirza Əliyev dəmir yol işçisi, anası İzzət xanım isə evdar qadın idi. Zaman təsdiqlədi ki, sadəliyi və işgüzarlığı ilə seçilən bu ailənin üzvü kimi yetişən uşaqlar gələcəyin böyük simalarına çevrildilər. Heydər Əliyevlə bərabər olaraq gələcəyin akademikləri, xalq rəssamı, elmlər namizədləri boy atırdı bu sadə ailədə. Hər biri elmə həvəsli olan uşaqlar əməkləri ilə, istedad və bacarıqları ilə tale yollarının təməlini qoyurdular. Azərbaycanın fəxarət duya biləcəyi bir ailənin övladlarını böyük uğurlar gözləyirdi. Qaynar bir həyat yaşayan, elmə böyük maraq göstərən və öyrənmək arzusu ilə çırpınan nəcib ruhlu uşaqlar sanki işıqlı gələcək naminə bütün dünyanı kəşf etməyə, sadə bir ailədən böük bir məkana çıxaraq qurub-yaratmaq, Azərbaycan adını yüksəltək üçün bütün qüvvələri, bacarıq və istedadlarını səfərbər edirdilər.

### ÖMÜR YOLUNA YAZILAN SƏHİFƏLƏR

Elə məktəb illərində yaşıdlarından fərqlənən Heydər Əliyev öz davranışı, təhsili ilə hər kəsin diqqətində olub. Böyük filosoflardan biri belə yazırdı: hər bir insanın həyat yolunu onun mənəvi dünyası, xarakteri müəyyən edir. Bu dünyada hər birimiz öz ömür yolumuzla addımlayırıq. Kimisi üçün bu yol hamardır, kimisi üçün enişli-yoxuşlu. Bu yolu elə addımlamalıyıq ki, sonunda qoyduğumuz iz silinməsin, şərəflə, ləyaqətlə keçək ömür yolumuzu. Heydər Əliyev belə bir yolu ilə addımladı. Şərəfli və ləyaqətli yolu ilə ən yüksək zirvələrə yüksəldi. Ulu Öndər Heydər Əliyev ilk olaraq öz həyatının, ömrünün tarixini yaradıb. Əgər Ulu Öndər həyat yolunu düzgün seçib istiqamətləndirməsəydi, Özünün şəxsi, ailə və cəmiyyət həyatında mövqeyini qiymətləndirməsəydi, bu yolda qətiyyətli addımlar atmasaydı, O ümumxalq məhəbbəti qazanıb, bəşəriyyətin qəlbində əbədiləşə bilməz, dünyanın böyük siyasətçiləri sırasında adı hallanmazdı. Heydər Əliyevin maraq dairəsi çox geniş olmuşdur. Hələ Naxçıvan ibtidai məktəbində oxuyarkən o, məktəb tamaşalarında tez-tez iştirak etmiş, həmişə şahzadə, sərkərdə rollarında oynamışdır. Çünki, Onun gözəl qaməti, gözəl diksiyası, gözəl natiqlik istedadı olmuşdur. Bundan əlavə Heydər Əliyev gözəl rəsmlər çəkirdi. Bu rəsmlərdən bir neçəsi bizim dövrə qədər gəlib çatmışdır. Beləliklə, onun fitri istedadı, gözəl qabiliyyəti hələ uşaqlıqdan özünü büruzə verməyə başlamışdır. Heydər Əliyevin şəxsi həyatı, uşaqlıq və gənclik illəri, ömrünün bütün dövrləri gərgin zəhmətlə keçib. Əlbəttə, bu dövrlərin çətin anları yaşanmasaydı, maneələr qətiyyətlə dəf edilməsəydi sonrakı zamanların uğurları qazanılmazdı. Rəhbərin həyatının səhifələri qeyri-adi, çoxlarına mümkünsüz görünən, qəhrəmanlara xas olan hadisələrlə xarakterikdir. Sovetlər dövründə milli təhlükəsizlik orqanlarında işləmək nə qədər şərəfli olsa da, bir o qədər çətin və məsuliyyətli idi. Heydər Əliyev çox böyük təsirlərə, çətinliklərə məruz qalsa da bu sistemdə şərəfli həyat yolu keçib, öz fəaliyyəti, çoxlarına xas olmayan xeyirxahlığı, vətənpərvərliyi ilə şəxsiyyətini tarixiləşdirib.

### RƏSSAM OLMAQ ARZUSU

Maraqlıdır ki, müxtəlif peşə adamları Ümummilli Liderimiz Heydər Əliyevi özlərinə hər zaman yaxın hesab ediblər. Xatırladaq ki, Heydər Əliyev hələ Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsində təhsil aldığı illərdə (1939-1941) və rəssamlıqla məşğul olması Onun qəlbində sənətə olan sevgi hissindən yaranmışdır. Ulu Öndər xatirələrindən söz açarkən bildirib ki, Naxçıvanda orta məktəbdə oxuyarkən rəsm çəkməyi xoşlayırmış. Öz rəsmlərini dövrünün rəssamlarına göstərərək, bu sənətin sirrlərin əxz etməyə çalışırmış. Onun rəssam olmaq arzusu var idi. 1939-cu ildə Heydər Əliyev Bakıda Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsinə daxil oldu. Amma müharibə Ona təhsilini başa vurmağa imkan vermədi. Faktiki olaraq müharibə Onun planlarını yarıda qoydu. O, xüsusi xidmətlərdə və təhlükəsizlik orqanlarında işə başladı. Onu da xüsusi olaraq etmək istərdim ki, Heydər Əliyevin nəslində də rəssamlar olub.

### MƏN HƏMİŞƏ TEATRA YAXIN VƏ BAĞLI OLMUŞAM

Teatra bağlı olan Ulu Öndər sonralar belə deyirdi:"Teatr müqəddəs yerdir, tərbiyə ocağıdır. Orada çalışanlar fədakardırlar, fədaidirlər... Heç kim bilmir ki, aktyor səhnəyə çıxıb rolu tamaşaçı qarşısında oynadığı vaxta kimi nə qədər həyəcan, sevinc keçirir. Mən həmişə teatra yaxın və bağlı olmuşam. Bu ötəri hiss deyil, içimdən gələn bir məhəbbətdir. Teatrı çox sevirəm. Teatra məhəbbət mənim içimdə var." Əlbəttə ki, bu fikirləri yalnız teatrı dərindən duyan, onu yaxından hiss edən bir insan ifadə edə bilər.

*Ardı Səh. 5*





mitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir. Heydər Əliyevə 1967-ci ildə SSRİ Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi tərəfindən general-mayor rütbəsi verilmişdi. 1964-cü ildən Heydər Əliyev Azərbaycan SSRİ Nazirlər Sovetinin yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildən isə sədri təyin edilmişdir. Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikanın rəhbəri olub.

Uşaqlıq və gənclik illərinin belə şərəfli tarixini yazan Ümummilli Lider Heydər Əliyev böyük idarəçilik təcrübəsi ilə müstəqil Azərbaycan dövlətçiliyinin milli və bəşəri normalara əsaslanan uzunmüddətli konsepsiyasını işləyib hazırlamış və onu dəqiqliklə həyata keçirmişdir.

Əvvəli Səh. 4

Ömrünün yetkin çağında Heydər Əliyev teatr adlı aləmin sehrinə düşmüş, həyatının bütün mərhələlərində də, planetdə dahi və fenomenal bir Şəxsiyyət kimi tanınanda da, ahıllıq dövründə də bu sehrdən xilas olmaq istəməmişdir. Əlbəttə ki, teatra olan sonsuz sevgini Naxçıvan teatr mühiti oyatmışdır. Doğma şəhərindəki dram teatrının tamaşalarına xüsusi maraq göstərən Heydər Əliyev, demək olar ki, 14 yaşından bu qədim sənət ocağının daimi tamaşaçısına çevrilir. Teatra vurğunluğu onu 1938-ci ildə Naxçıvan şəhər Pionerlər Evində yenicə təşkil olunan dram dərnəyinə gətirir. Naxçıvan Pedaqoji Məktəbində təhsil aldığı illərdə bu dram dərnəyinin fəal üzvü olan Heydər Əliyev burada hazırlanan "Qaralar ölkəsində" (K.Həsənov), "Lənkəran xanın vəziri" (M.F.Axundov), "On min manatı kim uddu" (M.Ordubadi), "Qanlı döyüş" (İ.Həmzəyev) kimi tamaşalarda oynadığı rollarla tamaşaçıların, xüsusən də müəllimləri və tələbə yoldaşlarının rəğbətini qazanır. Təsadüfi deyil ki, 1939-cu ildə Naxçıvanda təhsilini başa vurub Azərbaycan Sənaye İnstitutunda oxuyan Heydər Əliyev teatr aləmindən ayrı düşməsilə barışa bilmir və çox keçmədən bu işə maraq göstərən istedadlı tələbələri tapıb bir yerə toplayaraq, institutda dram dərnəyi yaradılmasına nail olur. Demək olar ki, məhz bu dram dərnəyindəki fəaliyyəti gənc Heydər Əliyevin təşkilatçılıq və rəhbərlik keyfiyyətlərini formalaşdırır. 1938-1939-cu illərdə Naxçıvan Pedaqoji Texnikumda oxumuş və buranı müvəffəqiyyətlə bitirdikdən sonra Heydər Əliyev həmin ildə Azərbaycan Sənaye İnstitutunun Memarlıq fakültəsinə qəbul olunur. O, memar olmaq arzusu ilə yaşayır və 1941-ci ilə qədər orda uğurla təhsil alır. Ancaq təəssüf ki, 1941-ci ildə Böyük Vətən müharibəsi başlayır və o, təhsilini yarımçıq qoymalı olur. 1941-ci ildə Heydər Əliyev Naxçıvan MSSR Daxili İşlər Komissarlığı tərəfindən Naxçıvana çağrılır. Gənc olmasına baxmayaraq, o, Naxçıvanda Xalq Daxili İşlər Komissarlığında və Xalq Komissarları Sovetində məsul bir vəzifə - şöbə müdiri vəzifəsində çalışır. 1944-cü ilə qədər bu vəzifədə işləyir.

1944-cü ildə rus dilini gözəl bildiyinə və çox məsuliyyətli olduğuna görə, irəli çəkilir və Dövlət Təhlükəsizlik Orqanlarında işə başlayır (ən kiçik rütbədə - leytenant rütbəsində) və həmin illərdə Leninqradda xüsusi ali təhsil almışdır. 1952-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə qəbul olunur və 1957-ci ildə oranı müvəffəqiyyətlə bitirir. Dövlət təhlükəsizliyi orqanlarında iyirmi beş il (1944-1969) çalışan Heydər Əliyev 1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini...







Azərbaycan tarixinə adını əbədi olaraq həkk etmişdir.

***Zümrüd BAYRAMOVA***

# Əsl məhəbbət haqqında hekayə

***Bütün insanlar bu dünyada öz yarını, ömür yoldaşını tapmaq istəyir, axtarır, arayır. Ruh əkizini tapıb xoşbəxt olan da var, zamanın sınağından keçə bilməyib sevgisindən əl çəkən də. İllərlə öz sevgiləri uğrunda mübarizə aparıb sonra qovuşmağı hər insan bacarmır. Hər insan onlar kimi əzmli olmur, hər insan onlar qədər dəyanətli də olmur. Amma onlar bacardılar, tarixə "Heydər və Zərifə" adlı bir sevgi hekayəsi də bəxş etdilər.***



## "Biz təkrar qarşılaşmalı idik"

O, böyük qardaşı Həsən Əliyevin çağırışı ilə onun dincəldiyi kurorta gedir, Kislovodska. Qardaşı orada onu ziyalı, mehriban bir ailə və onların gənc qızı ilə tanış edir. İlk görüşdə bu zərif qıza vurulan kiçik qardaşın - gənc Heydərin ürəyini təlatümə gətirən o qız Zərifə xanım idi. Heydər Əliyev sonralar o görüş haqqında danışanda həmişə belə bir cümlə işlədir: "O, ilk görüşdən mənim ürəyimə girdi".





Bu görüşdən qısa müddət sonra Heydər Əliyev Leninqrada oxumağa gedir. Bir müddət Zərifə xanımla əlaqəsi olmur, haqqında heç nə bilmir, harada, nə işlə məşğul olduğundan xəbərsiz olur. Amma sonralar dözmür, qardaşına yazdığı məktublarda ehmalca Zərifə xanımı xəbər alır, Həsən Əliyev kiçik qardaşının hisslərini anlayır və Zərifə xanım haqqında öz məktublarında qardaşına yazır.

1950-ci ildə Heydər Əliyev Dövlət Təhlükəsizlik Nazirliyinin Ali Məktəbini bitirdikdən sonra Bakıya qayıdır, işləyir. Bu ərəfələr həm böyük qardaşı, həm anası onun ailə qurmasını arzulayır. O özü də ailə qurmaq istəyirdi, çünki artıq 27 yaşında idi və ailə qurmaq üçün əsil vaxt idi. Ona tez-tez qızlar göstərirdilər, birini seçib-sevməsini, evlənməsini məsləhət görürdülər. Lakin gənc Heydər ona göstərilən heç bir qızla evlənmək istəmir. Sonralar müsahibələrində deyirdi: "Onların hamısı çox gözəl, mədəni, yaxşı ailələrin qızları idi. Amma mənim içimdə bir hiss vardı ki, tezliklə Zərifə xanımı təkrar görəcəyəm".

Zərifə xanımın böyük qardaşı Tamerlan Əliyev ilə dostluq edən Heydər Əliyev bir gün onlara qonaq gedir. Zərifə xanımı təkrar gördükdən sonra hisslərindən əmin olan gənc həyatını qurmaq istədiyi xanımın, məhz o olduğunu anlayır. Göygözlü, ucaboylu, hərbi mundirli, yaraşıqlı gənc zabit Zərifənin diqqətini özünə çəkməyi bacarır. Hisslərinin qarşılıqsız olmadığını başa düşdükdən sonra fikrini qətiləşdirir. O vaxtadək Zərifə xanımın atası Əziz Əliyev Moskvada işləyirdi. O zamankı Azərbaycan rəhbərliyi Əziz Əliyevi yenidən Azərbaycana dəvət edir və o, Azərbaycan Nazirlər Sovetinin sədrinin müavini işləyir. Lakin sonralar o iş yerində sıxışdırılır. O vaxt bu sıxışdırılmaya Əziz Əliyevin Mircəfər Bağırovun postuna gətiriləcəyi ilə bağlı yayılan xəbərlər təkan verirdi. Beləcə Əziz Əliyev işdən uzaqlaşdırılır.

## "Ya işin, ya da sevdiyin qız!"

Heydər Əliyev xatırlayırdı: "Bir dəfə biz Zərifə xanımla görüşdük, o mənə dedi ki, biz artıq görüşə bilmərik. Səbəbini soruşdum. Dedi ki, atasını işdən çıxarıblar, mənim işlədiyim orqanla əlaqədar olaraq görüşməyimizi düzgün hesab etmir. O dedi ki, bizim münasibətimiz alınmaz. Etiraz etdim. Dedim bizim münasibətimiz kimin harada işləməsindən asılı deyil, nə onun atasının işdən çıxarılması, nə də mənim harada işləməyim bizə əngəl ola bilməz. Çünki bizim aramızda olan münasibət çox saf və səmimi hisslərdən ibarət idi. Biz həqiqətən bir-birimizi çox böyük məhəbbətlə sevirdik. Ona dedim ki, narahat olmasın. Dedi ki, o özü üçün narahat deyil, mənim üçün narahatdır, münasibətimizin mənim işimə pis təsir edəcəyindən çəkinir".



Həmin vaxtlar Heydər Əliyevin Dövlət Təhlükəsizlik Nazirliyində işlədiyi zamanlar idi və bilirdi ki, Əziz Əliyev Dövlət Təhlükəsizlik Nazirliyinin nəzarətinə götürülüb, haqqında müxtəlif tədbirlər görülməsi planlaşdırılır. Görülən tədbirlər çərçivəsində Əziz Əliyevin ev telefonu da dinlənilirdi. Heydər Əliyev vaxtaşırı Zərifə xanımla telefonla da danışırdı. Bu zənglər zamanı onlar görüşmək üçün vədələşir, yer və vaxt təyin edirdilər. Gənc təhlükəsizlik işçisinin nəzarətdə olan bir şəxsin ailəsi ilə münasibətdə olması təbii ki, nəzərdən qaçmır. Heydər Əliyev bunu anlayırdı, lakin əhəmiyyət vermirdi.

Bir gün nazir Stepan Yemelyanov Heydər Əliyevi kabinetinə dəvət edir, bir qədər işdən söhbət edirlər. Daha sonra Zərifə xanımla olan münasibətini soruşur və atasının vəzifədən uzaqlaşdırılmasından söhbət açır. Bildirir ki, Mircəfər Bağırovun Əziz Əliyev haqqında fikri ürəkaçan deyil. Heydər Əliyevə təklif edir ki, Zərifə xanımla əlaqəsini kəssin, əks halda karyerasına ciddi manеə ola bilər, hətta orqandan xaric edilməsi də mümkündür. Heydər Əliyev həmin vaxt Bakıya tam yerləşməmişdi, evi yox idi, kirayədə qalırdı, ailəsindən uzaqda idi. Olanlar barədə o ailəsinə heç nə demir və işinə davam edir.

*Ardı Səh. 7*



Əvvəli Səh. 6

## Onu işdən çıxarılacağı ilə hədələyirlər

Məhəbbətindən imtina etməyən Heydər Əliyev həm işinə, həm də sevgisinə zərər verməmək üçün yollar axtarır. Axı o həm işini, həm də Zərifə xanımı itirmək istəmirdi. Onlar Bakının ətrafında gözdən uzaq, qaranlıq, tənha yerlərdə görüşməyə davam edirlər. Bu görüşlərdən biri haqqında Heydər Əliyev belə danışırdı: "Bir görüşümüzü təyin etdiyimiz yerdə trolleybus dayanacağı vardı, qaranlıq, tənha yer idi. Mən kişi idim deyə qorxusuz-ürküsüz hər yerə gedirdim, üstəlik, silahım da vardı, zabit idim. Amma Zərifə xanım gənc və çox gözəl bir qız idi, diqqət çəkə bilərdi. Mən onu trolleybus dayanacağında qarşılayırdım, keçirdik qaranlıq, tənha bir yerdə gəzirdik, söhbət edirdik".

Yemelyanov Heydər Əliyevi kabinetinə bir də dəvət edir və ona etdiyi xəbərdarlığı xatırladır, görüşdükləri barədə məlumatlı olduğunu bildirir. Həmin vaxt 29 yaşında olan Heydər Əliyev 50 yaşını ötmüş ahıl nazirə belə deyir: "Mən işimlə şəxsi həyatımı qarışdırmıram.

İşimi sevirəm, məni işçi kimi qiymətləndirirsiniz, işimdə bir qüsur yoxdur. Lakin mənim həyatımın ikinci tərəfi, bəlkə də daha vacib tərəfi mənim gələcək ailəmdir, hissimdir, sevgimdir. Mən o qızı sevirəm, o da məni sevir. Mən ondan necə ayrıla bilərəm? Nə deyib ayrılım? Bu, mənim üçün çox ağırdır, ona səbəb demədən ayrıla bilmərəm. Ya gərək onu sevmədiyimi deyim, ya nöqsanlarının olduğunu deyəm. Axı bunların heç biri deyil. Mən ona necə deyim ki, təhlükəsizlik orqanlarında işləyə bilmək üçün səndən ayrılmalıyam. Yemelyanov ağıllı adam idi, təsdiqlədi dediklərimi. Dedim bəs mən nə edim? Dedi ki, özün bilərsən. Ancaq bil ki, işini riskə atırsan, gələcəkdə təhlükəsizlik orqanlarında işləməyin böyük sual altında olacaq, ehtimal ki, işini itirəcəksən".

50-ci illərdə "İngilis bağı" deyilən ərazidə gecələr əl-ayaq çəkildikdən sonra görüşən gənclər münasibətlərinə davam edirlər. Bu ərazi Mircəfər Bağırovun evinin yaxınlığı idi. Həmin illər Əziz Əliyev haqqında təhlükəsizlik orqanlarında görülən tədbirlərdən xəbəri olan gənc zabit sonralar müsahibələrində deyirdi: "Mən bilirdim ki, Əziz Əliyev təmiz adamdır, onun heç bir günahı yox idi. O, ləkəsiz adam idi. Ancaq təəssüf ki, həmin dövrlərdə o qədər günahsız insanlar təhlükəsizlik orqanları tərəfindən cəzalandırılmışdı. Anlayırdım ki, günahsız olması onu xilas etməyə bilər."

## Onların sevgisi heç nəyə, heç kimə əyilmədi

1953-cü ildə Stalinin vəfatından sonra Mircəfər Bağırovun vəzifədən getməsi, nazir Yemelyanovun məhkum olması gənclərin gələcək həyatına da təsir edir. Onlar daha rahatlıqla, Heydər Əliyevin öz deyimi ilə desək, leqal yollarla görüşürlər. Vəziyyət getdikcə düzəlir, bir qədər sonra Əziz Əliyev layiq olduğu vəzifəyə qaytarılır.

Nəhayət, 1954-cü ilin noyabrında onlar evlənirlər. Bu, yığcam, rəsmi tələblərə uyğun musiqisiz bir məclis idi. Gənclər nikah mərasimindən sonra evdə kiçik bir məclislə evliliklərini qeyd edirlər. Məclisdə Əziz Əliyev, Həsən Əliyev, akademik Murtuza Nağıyev, Zərifə Xanımla Heydər Əliyevin anaları və yaxın qohumları iştirak edirdilər.

Onların sevgisi zamanın sınağından üzüağ çıxdı. Qarşılıqlı məhəbbət üzərində, təmənna güdülmədən qurulan ailə xoşbəxt idi. Gənc zabit Heydər Əliyevin təhlükəsizlik orqanlarındakı işi mürəkkəb idi və çoxlu vaxt tələb edirdi. O, gərgin rejimlə çalışırdı. Zərifə xanım isə artıq həkim kimi fəaliyyət göstərirdi, lakin ailənin bütün qayğılarını da öz üzərinə götürərək ömür-gün yoldaşının ağır işini bacardığı qədər yüngülləşdirməyə çalışırdı.

*Ardı Səh. 8*











Əvvəli Səh. 7

Sonralar Heydər Əliyev həmin illərdə Zərifə xanımın dəstəyinin onun işi üçün nə qədər əhəmiyyətli olmasından danışırdı. 1982-ci ildə Ulu öndər Heydər Əliyev Siyasi Büronun üzvü seçildi və Moskvada SSRİ hökuməti sədrinin birinci müavini təyin olundu. Zərifə xanım ömür-gün yoldaşını tək buraxmadı və uşaqlarla birgə Moskvaya köçdü.

## Ölümündən sonra da sevmək...

Ailəsindən danışanda həmişə Zərifə xanım tərəfindən belə güclü sevilməsə xoşbəxt ola bilməyəcəklərini deyən Heydər Əliyev möhkəm və güclü ailə üçün ona bütün ömrü boyu minnətdar olduğunu deyirdi. Böyük bir sınaqdan keçən bu sevgi onların mübarizliyinin nəticəsində uzunömürlü ailəyə çevrildi, 30 il bir yerdə xoşbəxt ailə həyatları oldu.

Hər dəfə həyat yoldaşının qəbrini ziyarət edəndə, onun haqqında danışanda kövrələn Ümummilli Lider deyirdi: "Ən böyük təəssüfüm onun həyatdan tez getməsi oldu. 30 il bir yerdə yaşadıq, iki gözəl övladımız oldu, amma onun həyatdan erkən gedişi məni dərindən sarsıtdı. Uzun illər keçib, lakin mən onu hələ də sevirəm, ilk günkü kimi."

Prezident İlham Əliyev də anası haqqında hər zaman böyük ehtiram və məhəbbətlə danışıb. O, Zərifə xanımın xüsusiyyətlərinə, mehribanlığına, təvazökarlığına heyran olduğunu deyir: "Anam atamın yalnız ömür-gün yoldaşı deyildi, eyni zamanda bütün işlərdə ona dayaq olurdu, onu dəstəkləyirdi. Ailəmizdə olan ab-hava, mühit, valideynlər arasında olan münasibətlər əlbəttə ki, bizi də tərbiyə edirdi. Yəni, ailədə tərbiyəni valideynlərin münasibətlərini görərək alırdıq".

Onların timsalında insanlar əsl məhəbbətin nə olduğunu anladı, sevgisi uğrunda mübarizə aparmağı, sevgisi üçün işini itirməyi gözə almağı... Heydər Əliyev və Zərifə Əliyeva öz sarsılmaz sevgiləri, bölünməz ailələri ilə bəşəriyyətə əsl məhəbbət haqqında tarixi hekayə bəxş etdilər.

***Lalə Mehralı***

# Azərbaycanın gələcəyi uğrunda

## Heydər Əliyev fenomeni Sovet dövründə (1969-1987)








Heydər Əliyevin təhsil və əmək karyerası çox zəngin və keşməkeşli olub. Onun təhsil və əmək fəaliyyətinə başlaması ölkənin və dünyanın ən ağır dövrünə- II Dünya Müharibəsi illərinə düşür. 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsində təhsil alan Heydər Əliyevə təhsilini başa çatdırmağa tezliklə başlanan II Dünya Müharibəsi imkan vermədi. Lakin bu amil ümummilli liderimizə öz xalqının və dünyanın ən böyük şəxsiyyətləri sırasına yüksəlməkdə mane ola bilmədi...

### DTK generalı erməni təxribatlarının qarşısını necə aldı?

1941-1944-cü illərdə Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və MSSR Xalq Komissarları Sovetində müxtəlif məsul vəzifələrdə xidmət edir, 1944-cü ilin mayında isə Naxçıvan Vilayət Partiya Komitəsi tərəfindən dövlət təhlükəsizliyi orqanlarına işə göndərilir. O, 1949-1950-ci illərdə DTK-nın Leninqrad şəhərində yerləşən Rəhbər Kadrların Hazırlığı Məktəbində təhsil alır, 1950-ci ildə Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsində bölmə rəisi vəzifəsinə təyin olunur.

1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirir. 1958-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin əks-kəşfiyyat şöbəsinin rəisi, 1964-cü ildə isə DTK-nın sədr müavini vəzifəsinə təyin edilir. Heydər Əliyev 1967-ci ildə DTK-nın sədri vəzifəsinə təyin olunur və həmin ildə ona general-mayor rütbəsi verilir.

Heydər Əliyev DTK sədri olarkən erməni millətçilərinin əsassız ərazi iddialarının qarşısı qətiyyətlə alırdı. Belə ki, o, 1967-ci il iyunun 26-da Azərbaycan KP MK-nın 1-ci katibi Vəli Axundova məktubunda yazırdı ki, iyunun 23-dən 24-nə keçən gecə Xankəndidə bəzi küçələrdə erməni dilində 300 vərəqə yayılmışdır. Həmin vərəqələrdə ermənilər tərəfindən Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-ə birləşdirilməsi tələb edilir və millətçi fikirlər irəli sürülürdü. Məktubda qeyd edilirdi ki, vərəqənin müəlliflərini axtarıb tapmaq, eləcə də digər lazımi tədbirləri görmək üçün Xankəndiyə əməliyyat qrupu göndərilmiş və təqsirkarlar ciddi cəzalandırılmışlar. Həmin ildə təkcə DQMV-də 1200-dən artıq belə vərəqə hazırlanıb yayılmışdı. Qısa müddət ərzində belə vərəqələri hazırlayanlardan 13 nəfər, yayanlardan isə 17 nəfər saxlanılmışdı.

1967-ci ilin əvvəllərində erməni millətçiləri tərəfindən əvvəlcədən hazırlanan plana əsasən Dağlıq Qarabağda milliyyətcə erməni olan şəxs qətlə yetirilmişdi. Planın ikinci mərhələsinə uyğun olaraq xüsusi erməni təhrikçilərinin rəhbərliyi altında kütlə bu ölüm hadisəsi ilə bağlı məhkəmə iclasının keçirildiyi kinoteatrın zalına girərək şübhəli şəxs kimi həmin prosesdə dindirilən 2 azərbaycanlını zorla mühafizəçilərin əlindən alıb xüsusi amansızlıqla öldürmüşdülər. Təqsirləndirilən, lakin sonradan bəraət almış digər azərbaycanlı isə dustaq maşını ilə birlikdə yandırılmışdı. Burada əsas məqsəd hadisələri qızışdırıb milli zəmində qarşıdurma törətmək, nəticədə azərbaycanlıların bütün Qarabağ ərazisindən köçürülməsini və ərazinin Ermənistana birləşdirilməsinin təməlini qoymaq idi. Lakin Azərbaycan təhlükəsizlik orqanlarının, xüsusilə ümummilli liderin çevik müdaxiləsi nəticəsində bu hadisələrin qarşısı qısa müddətdə alınmışdı. İşin istintaqını Heydər Əliyev şəxsən öz nəzarətinə götürmüşdü. Hətta bu məqsədlə Xankəndiyə gedərək 15 gün orada qalmışdı. Nəticədə ermənilərin həmin planı baş tutmamışdı.

### Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərliyinin nəticələri

60-cı illərin sonunda Heydər Əliyevin ömür yolunda yeni, daha geniş, çoxşaxəli, qaynar fəaliyyət dövrü başlanır. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il 14 iyul tarixli plenumunda 46 yaşlı Heydər Əliyev Azərbaycan KP MK-nın 1-ci katibi seçilərək 1982-ci ilə qədər Azərbaycan SSR-ə rəhbərlik edir.

*Ardı Səh. 10*
















*Əvvəli Səh. 9*

Bu dövrdə idarəçiliyin möhkəmlənməsi, kadrlara qarşı tələbkarlığın artırılması nəticəsində sosial-iqtisadi, elmi-mədəni sahədə böyük nailiyyətlər əldə edilir.

Həmin illər Sovet Azərbaycanının tarixinə ən parlaq quruculuq dövrü kimi daxil oldu. Sənaye və kənd təsərrüfatının bütün sahələrində yüksəliş baş verdi. Respublika iqtisadiyyatında mühüm struktur dəyişiklikləri həyata keçirildi. Yeni və mütərəqqi sənaye sahələri yaradıldı. Sənayenin inkişaf səviyyəsinə görə bütün respublikanın proporsional inkişafı üçün mühüm tədbirlər görüldü. İstehsalla bilavasitə bağlı olan elmi-tədqiqat sahələrinin inkişafına diqqət artırıldı. Elmi-texniki tərəqqinin nailiyyətlərinin, mütərəqqi texnologiyaların istehsalata tətbiqi sahəsində Azərbaycan bütün SSRİ-də qabaqcıl mövqelərə çıxdı. İstehsal olunan məhsulların keyfiyyət göstəricisi əvvəlki dövrlərlə müqayisə olunmayacaq dərəcədə yüksəldi. Əhalinin sosial rifahı xeyli artdı.

1970-1985-ci illərdə, tarixən qısa bir dövr ərzində, bütövlükdə respublika ərazisində yüzlərlə zavod, fabrik, istehsalat sahələri yaradıldı. 213 iri sənaye müəssisəsi işə salındı. Bir çox mühüm istehsal sahələrinə görə Azərbaycan Sovet İttifaqında aparıcı yerlərdən birini tuturdu. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Bu illərdə istehsal olunan sənaye məhsulları öz həcminə görə əvvəlki 50 ildəkinə bərabər idi. Həmin illərin Azərbaycanı nəhəng bir tikinti meydanını xatırladırdı. Bakının və respublika rayonlarının siması büsbütün dəyişmişdi.

Bu gün Bakıya, Azərbaycanın rayonlarına gözəllik, yaraşıq verən yüzlərlə yaşayış binaları, mehmanxanalar, ictimai binalar, məktəblər, müasir səhiyyə ocaqları, mədəniyyət sarayları, iqtisadiyyatımızın nüvəsini təşkil edən fabriklər, zavodlar, nəhəng sənaye obyektləri, iri istehsal kompleksləri, su anbarları, yaşıllıq zonaları, istirahət ocaqları, avtomobil və dəmir yolları... Heydər Əliyev zəkasının, onun yorulmaz fəaliyyətinin, bu böyük insanın bütün varlığına hopmuş Vətən sevgisinin nəticəsi idi.

## Dünyanın ən böyük dövlətinin rəhbərliyinə yüksəlmiş lider

1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini vəzifəsinə təyin edilir və SSRİ-nin rəhbərlərindən biri olur. Dünyanın ən böyük dövlətinin 3-cü böyük şəxsi kimi dünyada tanınır. Azərbaycan xalqı Nəriman Nərimanovdan sonra belə yüksək mərtəbəyə çıxa bilmiş daha bir oğlunu yetişdirmişdi. Yeri gəlmişkən, doğma xalqı, el-obası üçün canını qoyan Nəriman Nərimanovun Bakının ən hündür yerində əzəmətli heykəlini ucaltdırmaq Heydər Əliyev şəxsiyyətinin Vətən qarşısında böyük xidmətlərindən biri idi. Sonralar Nərimanova Ulyanovsk şəhərində də abidə ucaltdırmağa nail olan ümummilli lider bir daha sübut etdi ki, o öz xalqının böyük oğullarını heç vaxt unutmur, unutdurmur.

Zaman keçəcək, o, Azərbaycan dövlətinin rəhbəri kimi də dünyada tanınacaq və ölkəsini dünyada tanıdacaqdı. Hələlik isə, SSRİ-nin ən qüdrətli dövrüdür- 70-80-ci illər və Heydər Əliyev dünya siyasətinə, iqtisadiyyatına təsir edən yüksək postda işini davam etdirir.

Xalq arasında da onun böyük nüfuzu var idi. SSRİ Ali Sovetinin (8, 9, 10 və 11-ci çağırışlar) deputatı, 9-cu çağırış SSRİ Ali Soveti İttifaq Sovetinin sədr müavini (1974-1979), RSFSR Ali Sovetinin deputatı (XI çağırış, 1985), Azərbaycan SSR Ali Sovetinin (7, 8, 9, 10 və 12-ci çağırışlar) deputatı və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin üzvü (8, 9 və 10-cu çağırışlar) olur.

Heydər Əliyevin SSRİ rəhbəri seçilməsi üçün böyük şansları var idi. Həm əhali arasında, həm də dövlət rəhbərliyində ona inam və etibar böyük idi. Lakin bu vəzifəyə Mixail Qorbaçovun seçilməsi ilə ona qarşı təzyiqlər başlayır. Sov. İKP MK-nın 1987-ci il oktyabr plenumunda Heydər Əliyev Sov. İKP MK Siyasi Bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini vəzifəsindən öz ərizəsi ilə istefa verir.

*Ardı Səh. 11*







Əvvəli Səh. 10













## Ümummilli liderin SSRİ dövründə aldığı bəzi mükafatlar

Ümummilli lider Heydər Əliyevin Sovet dövrü əmək karyerası boyu bəzi mükafatlara nəzər salmaq onun necə böyük və uğurlu bir əmək fəaliyyəti göstəridiyinin əyani sübutudur. Aşağıda mükafatların kiçik bir hissəsi verilib.

-"Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" medalı- 1945

-"Böyük Vətən müharibəsində rəşadətli əməyə görə" medalı- 1945

-"SSRİ Silahlı Qüvvələrinin 30,40, 50 və 60 illiyi yubiley medalları- 1947, 1957, 1967, 1977

-"Əmək igidliyinə görə" medalı- 1949 "Döyüş xidmətlərinə görə" medalı- 1954

-II dərəcə "Nümunəvi xidmətə görə" medal- 1959 "DTK-nın fəxri əməkdaşı" nişanı- 1960

-"Qırmızı Ulduz" ordeni- 1962 Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı- 1964

-I dərəcəli "Nümunəvi xidmətə görə" medalı- 1964

-Böyük Vətən müharibəsində qələbənin 20, 30 və 40 illiyi ilə bağlı yubiley medalları- 1965, 1975, 1985

-"Sovet milislərinin 50 illiyi" yubiley medalı- 1967

-"ÜFK-DTK-nın 50 illiyi" nişanı- 1967 "SSRİ Sərhəd Qoşunlarının 50 illiyi" yubiley nişanı- 1968

-"Vladimir İliç Leninin anadan olmasının 100 illiyi münasibətilə" yubiley medalı- 1970

-5 dəfə Lenin ordeni (1971, 1973, 1976, 1979, 1983)

-İki dəfə Sosialist Əməyi Qəhrəmanı (1979, 1983) "Oktyabr inqilabı" ordeni- 1982

-Sov. İKP MK-nın "Politiçeskoe samoobrazovanie" jurnalı redaksiya heyətinin Fəxri Fərmanı- 1982

-"Kiyevin 1500 illik xatirəsinə" medalı- 1982 "Komsomolsk-Amurun 50 illiyi" yubiley nişanı- 1984

-ÜİLKGİ MK-nın "60 il V.İ.Leninin adı ilə" fəxri nişanı- 1984

-"25 il Patris Lumumba adına Xalqlar Dostluğu Universiteti" medalı- 1985

-I dərəcəli Vətən Müharibəsi Ordeni- 1985 "SSRİ Silahlı Qüvvələrinin 70 illiyi" yubiley medalı- 1988

## Azərbaycanın gələcəyi uğrunda yorulmaz fəaliyyət

Heydər Əliyev Azərbaycan SSR-ə rəhbərliyi dövründə təhsilin inkişafına, xüsusilə, böyük əhəmiyyət verirdi. Onun rəhbərliyi altında təhsil müəssisələrinin geniş şəbəkəsinin yaradılması və həmin şəbəkənin zəngin maddi-texniki bazasının formalaşdırılması, Elmlər Akademiyasının elmi-tədqiqat institutlarında fundamental elmin inkişafının təmin olunması respublikada böyük intellektual baza yaratdı.

Həmin illərdə respublikada məktəblərin, ali və orta ixtisas müəssisələri üçün yeni binaların tikintisi geniş vüsət almış, təhsil infrastrukturu tamamilə yeniləşdirilmiş, yeni ali və orta ixtisas məktəbləri açılmışdı. Respublikanın müxtəlif bölgələrində 800-ə yaxın məktəb tikilərək istifadəyə verilmiş, ölkəmizdə fəaliyyət göstərən ali məktəblərin ümumi sayı 12-dən 17-yə, tələbələrin sayı 70 mindən 100 minə qədər artmışdı.

Həmin dövrdə Azərbaycanın əldə etdiyi mühüm tarixi nailiyyətlərdən biri də milli kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssis kontingentinin yaradılması idi. Bu məqsədi uğurla həyata keçirmək üçün Heydər Əliyev hər il azərbaycanlı gənclərin təhsil almaq üçün böyük qruplarla keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərinə göndərilməsi ənənəsinin əsasını qoymuşdu. O dövrdə SSRİ-nin 170 qabaqcıl ali təhsil ocağına 15 minə yaxın azərbaycanlı göndərilmiş, hər il xaricə 800 tələbə yola salınmışdı.

Elmlər Akademiyasının genişləndirilməsi və inkişafına ümummilli lider xüsusi fikir verirdi. Nəticədə, respublikada çox sayda elmi işçilər, böyük alimlər yetişdi. Azərbaycan Sovet Ensiklopediyasının nəşr olunması isə ulu öndərin Azərbaycan elmi qarşısında ən böyük xidmətlərindən idi ki, bu gün də həmin Ensiklopediya ən qiymətli elmi xəzinə sayılır.

*Ardı Səh. 12*

























Əvvəli Səh. 11

SSRİ-nin kosmik uçuşlara hazırlıq mərkəzində azərbaycanlı gənclərin olmamasından narahatlıq keçirən Azərbaycan rəhbəri gənclərin ali təyyarəçilik məktəblərinə göndərilməsini şəxsi nəzarətinə götürmüşdü.

Azərbaycanda ali hərbi məktəblərin açılması isə milli hərbçi kadrların hazırlanmasında çox böyük bir iş idi. Bu məktəblərdən böyük generallar, hərbi mütəxəssislər yetişdi və onlar 1-ci Qarabağ müharibəsində Azərbaycan Ordusunun özəyini təşkil etdilər.

## Azərbaycanın bütövlüyü uğrunda mübarizə

Heydər Əliyevin Siyasi Büronun üzvü, Nazirlər Soveti sədrinin 1-ci müavini olduğu dövrdə ermənilərin Azərbaycana qarşı təxribatları və iddiaları baş tutmadı. Yalnız, ümummilli lider Siyasi Bürodan və NS-dəki vəzifədən istefa verdikdən sonra ermənilər fəallaşdılar.

Heydər Əliyev 1990-cı ilin 20 yanvarında Sovet qordusunun Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb edir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşayır, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilir. Daha sonra



isə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri, Azərbaycan Ali Sovetinin sədr müavini seçilir.

SSRİ rəhbərliyində mühüm mövqelərə yiyələnmiş ermənilərin və onlara havadarlıq edən Mixail Qorbaçovun planları nəticəsində Qarabağda münaqişə getdikcə qızışırdı. Dağlıq Qarabağ Muxtar Vilayətində yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, hələ SSRİ-nin dağılmasından və Azərbaycanın müstəqilliyini əldə etməsindən yarım il əvvəl- 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk edir.

*Epoxa bitmişdi...*

***Elçin Bayramlı***

***PS: Ümummilli lider Heydər Əliyevin Sovet dövründə doğma xalqı qarşısında ən böyük xidməti o idi ki, 1991-ci ilin sonunda Azərbaycan İttifaqdan ayrılıb müstəqilliyini elan edərkən, respublika artıq müstəqil bir dövlət kimi yaşamağa tamamilə hazır idi.***













***Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin banisi, görkəmli siyasi və dövlət xadimi, Azərbaycan xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onun müstəqilliyinə qovuşmasına töhfə vermiş qüdrətli şəxsiyyətdir. Bu böyük şəxsiyyətin anadan olmasının 100 illiyi fövqündə onun həyat və fəaliyyətindən söhbət açmaq, xalqımızın tale payı olan dahinin Azərbaycan üçün misilsiz xidmətlərindən bəhs etmək, gənc nəsillərimizə bənzərsiz insanın millətinin xilaskarı olmasından danışmaq olduqca zəruridir. Çünki bugünkü və gələcək nəsillərin Ulu Öndərin xalqımız üçün dəyərli, hər zaman qürur duyduğumuz şəxsiyyət olmasını bilməsi, Onun irsini öyrənməsi vacibdir. Bu isə bizim üzərimizə düşən vəzifədir. Odur ki, hər dəfə Ulu Öndərdən söhbət açmaqla qürur duyur, fəxr edirik.***

# NAXÇIVANDAN BAŞLANAN MÜSTƏQİLLİK YOLU

## (1988-1993)



Onun həyat və fəaliyyətinin Azərbaycan tarixinin ayrıca bir mərhələsini təşkil edən Naxçıvan dövrü isə daha diqqətçəkəndir. Çünki bu mərhələ ümumilikdə Azərbaycan xalqının taleyinin dəyişməsinə xidmət edən bir mərhələ olmuşdur.

### Heydər Əliyev və blokada Naxçıvanı

1990-cı ilin yanvar ayında Azərbaycanın ayrı-ayrı rayonlarının, eləcə də Naxçıvanın sərhədlərində ermənilər tərəfindən münaqişələr törədilirdi. Yanvar ayının 18-də keçmiş SSRİ-nin Daxili Qoşunlarının iştirakı ilə Naxçıvanın Kərki kəndi işğal olunmuşdu. Ermənilərin Sədərək istiqamətində mütəmadi hücumları başlamışdı və vəziyyət gündən-günə gərginləşirdi. Yanvarın 20-də Bakıda törədilən faciə ilə Naxçıvanın sərhədlərində münaqişələrin başlanmasının üst-üstə düşməsi isə ermənilərin havadarlarının əvvəlcədən hazırladıqları böyük plan üzrə cərəyan edirdi. Belə ki, burada məqsəd diqqətin Bakı hadisələrinə yönəlməsi fonunda Naxçıvanın əhalisi arasında ümidsizlik yaradaraq bölgənin boşaldılması və erməni işğalı üçün şəraitin yaradılması idi. Digər tərəfdən isə Naxçıvanı ölkənin paytaxtı ilə birləşdirən yollarda da ermənilər tərəfindən münaqişə törədilir, Bakı-Naxçıvan qatarları dayandırılır, günlərlə işləmir, maşinistlətə qarşı vəhşiliklər edilirdi. Naxçıvan blokada vəziyyətinə salınırdı. Bütün bu əməllərin arxasında kimin olduğu, kimin planı və gücü ilə həyata keçirilməsi 20 Yanvar hadisələrindən sonra Naxçıvana qayıdan və burada yaşayan Ulu Öndərə gün kimi aydın idi. Elə buna görə də Ali Məclisin 14 dekabr 1990-cı il tarixdə keçirilən sessiyasında yeni ittifaq müqaviləsinə münasibət məsələsi müzakirə olunarkən məsələ ilə bağlı çıxış edən Ulu Öndər Heydər Əliyev deyirdi: "Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Azərbaycan respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır..."

1991-ci il sentyabrın 3-də Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinə Sədr seçilməsi Azərbaycanı çox yaxşı bələd olduğu ittifaqın caynağından qoparmaq üçün yolun başlanğıcı idi. Naxçıvanda yaşadığı halda Azərbaycanı idarə etmək qabiliyyətinin, xalqın müstəqillik arzusunu reallaşdırmaq bacarığının, tarixi sənədlərin qəbulu və həyata keçirilməsi əzminin nümayişi idi. Bu seçim eyni zamanda Azərbaycanın qədim diyarı Naxçıvanın erməni təcavüzündən, onun düşmən əlinə keçmək təhlükəsindən xilası idi.

Təbii ki, bütün bu hadisələrin fonunda Ulu Öndərin yaşadığı, rəhbərlik etdiyi Naxçıvanda SSRİ-nin saxlanılmasına dair referendum keçirilə bilməzdi. Beləliklə də, referendum Naxçıvanda boykot edildi. Bu barədə Azərbaycan Respublikası Ali Sovetinin 18 oktyabr 1991-ci il tarixli sessiyasında qəbul edilmiş "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyə haqqında" Konstitusiya Aktına münasibətlə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi 26 oktyabr 1991-ci il tarixli bəyanat verdi

Dövlətimizin başçısı bu məsələyə münasibət bildirərkən tarixi fakta əsaslanaraq demişdir: "...Heydər Əliyev qoymadı ki, Naxçıvanda bu referendum keçirilsin. İndi baxın, müstəqilliyə aparan addımlar hansılardır? Müstəqilliyə aparan yollar haradan keçib?.. Mən istərdim ki, hər kəs bu tarixi bilsin və müstəqilliyin əsas səbəbkarlarını tanısın. Bizim müstəqilliyimizə gedən yol məhz 17 noyabr 1990-cı ildən başlamışdır ki, indi dövlət bayrağımız olan üçrəngli bayraq dövlət bayrağı kimi təsis edildi".

### Milli azadlıq uğrunda mübarizənin başlanğıcı

1991-ci ilin yazında Azərbaycanda Sovet İttifaqının saxlanmasına dair keçirilən referendumun Naxçıvanda boykot edilməsi milli azadlıq uğrunda mübarizənin başlanğıcı idi. 70 illik əsarət zəncirinin tamamilə qırılıb dağılmaq üzrə olduğu, 15 müttəfiqin azadlıq mücadiləsi ilə mübarizə apardığı bir vaxtda, xüsusilə də 1990-cı ilin 19-20 yanvarında Bakının Azadlıq meydanında müstəqillik uğrunda yüzlərlə şəhidi olan ölkənin Ali Sovetinin 1991-ci il 16 yanvar tarixli qərarına günümüzün prizmasından baxdıqda həmin dövrdə bu xalqın taleyinin kimlərin əlində olması böyük təəssüf hissi doğurur. Adıçəkilən tarixdə Azərbaycan Respublikası Ali Soveti "Sovet Sosialist Respublikaları İttifaqının saxlanması məsələsi üzrə SSRİ referendumunun Azərbaycan Respublikasında keçirilməsinin təşkili haqqında" qərar qəbil etmişdi. Qərarda referendumun "Ümumxalq səsverməsi (SSRİ referendumu) haqqında" SSRİ Qanununun 17-ci və 18-ci maddələrinə uyğun olaraq Azərbaycan Respublikasında 1991-ci il martın 17-də keçirilməsi qeyd olunurdu.

Bu barədə dövlət başçısı cənab İlham Əliyev tarixi və dəyərli fikirlərini bildirərək qeyd edib ki, Sovet İttifaqı dağılırdı, Rusiya Federasiyası özü dövlət suverenliyi haqqında Konstitusiya Aktını bizdən qabaq qəbul etmişdi: "Rusiya çıxdı, Ukrayna çıxdı, bütün qalan respublikaları çıxdı. Azərbaycan rəhbərliyi nəyi gözləyirdi, kimi gözləyirdi? Bilirsiniz, ona görə, bu tarixi bilmədən düzgün təsəvvür formalaşdırmaq çətindir. Gələcəkdə düzgün addımların atılması üçün də bu vacibdir və gənc nəsil də bunu bilməlidir. Tarixi həqiqət belədir. Amma, eyni zamanda, bizim o ildə digər tarixi həqiqət var - o da 17 noyabr tarixidir. 1990-cı il noyabrın 17-də Heydər Əliyevin təşəbbüsü ilə o vaxt Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adı dəyişdirildi, "Sovet Sosialist" sözləri o addan götürüldü, sadəcə, Naxçıvan Muxtar Respublikası adlandırıldı. 1990-cı il noyabrın 17-də Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvanda rəsmi bayraq kimi qəbul edildi".

### Hər bir sənəd bir tarixdir

Ümummilli Liderimiz Heydər Əliyevin Naxçıvanda yaşadığı, fəaliyyət göstərdiyi dövr iki ilədək olsa da, Azərbaycan tarixinin böyük bir hissəsini əhatə edir. Böyük şəxsiyyətin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyalarındakı çıxışlarını, Naxçıvana gələn qonaqlarla söhbətlərini, ayrı-ayrı sahələrdəki vəziyyətlə bağlı fikirlərini, müsahibələrini oxuduqca çox məqamlar açıqlanır. Bunlardan birincisi, Ulu Öndərə baxmayaraq ki, Naxçıvanda yaşadığı və fəaliyyət göstərdiyi vaxtlar da ölkə rəhbərliyi tərəfindən təzyiqlər var idi, lakin onun Azərbaycan rəhbərliyinə həmişə böyük hörmət hissi ilə yanaşdığının, bunun da dahi şəxsiyyətin böyük idarəçilik qabiliyyətinin, insanpərvərliyinin, alicənablığının nəticəsi olduğunu dərk edirsən. İkincisi, dahi insanın qonaqlara, xarici ölkələrdən gələn nümayəndələrə Naxçıvanın Azərbaycanın qədim ərazisi olduğunu tarixi faktlarla izahının şahidi olursan. Üçüncüsü, onun ölkədəki, eləcə də muxtar respublikadakı ictimai-siyasi hadisələrin siyasi təhlilinin və təcavüzkar Ermənistanın, onun havadarlarının uzaq gələcəyə hazırlanmış planlarını nə qədər dəqiqliklə analiz etdiyini görürsən. Ümumilikdə isə Ulu Öndərin hər bir çıxışı, söhbəti bu günün bir tarix dərsidir ki, gələcək nəslin Naxçıvanın blokada illəri haqqında məlumat alacaqları bundan güclü ikinci bir mənbə yoxdur.

Naxçıvanda yaşamasına və fəaliyyət göstərməsinə baxmayaraq Azərbaycanın taleyüklü məsələlərini diqqətdə saxlayan, müstəqilliyimizin bərpası üçün mübarizə aparan, sözünü yüksək kürsülərdən açıq şəkildə deyən, yeri gələndə hakimiyyətdə olanları ittiham edən Ulu Öndərin həyatının Naxçıvan illəri ilə bağlı topladığım maraqlı materialları - çox böyük tariximizi gənc nəsillərə çatdırmaq istədim ki, oxusunlar və öyrənsinlər... Hansı ki, həmin dövrdə bu cür addımlar və çıxışlar etmək böyük cəsarət tələb edirdi. Buna görə də onlar öyrənilməlidir ki, müstəqilliyimiz, tariximiz də məhz bu cür cəsarətlə və hünərlə qoruna bilsin.

Azərbaycan ilə Türkiyə arasında sərhəd keçidi yaratmaq məqsədilə Araz çayı üzərində Naxçıvan Muxtar Respublikasının ərazisində Sədərək-Dilucu bölgəsində Türkiyə Cümhuriyyəti avtomobil nəqliyyatı üçün körpü tikildi. 1992-ci ilin may ayının 28-də bu körpünün rəsmi açılışına Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəl başqa olmaqla, Türkiyədən Naxçıvana böyük dövlət nümayəndə heyəti gəldi. Həmin gün Türkiyə Cümhuriyyətinin, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Rebspublikasının rəhbərliyinin, Araz çayının o tayında-bu tayında toplaşmış Naxçıvanın və Türkiyənin çoxminli əhalisinin iştirakı ilə Türkiyə ilə Azərbaycan arasındakı körpünün açılışı oldu. Beləliklə iki qardaş xalqın üzün illər həsrətində olduqları arzuları yerinə yetdi, Sədərək-Dilucu "Həsrət körpüsü", "Ümid körpüsü" yarandı.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti Sədərək -Dilucu körpüsünün yaranmasını böyük əhəmiyyətə malik olan bir hadisə kimi qiymətləndirərək qeyd edirdi ki, bu körpü Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında iqtisadi, mədəni, insani əlaqələrin genişlənməsinə və inkişaf etməsinə, Araz çayının o tayında və bu tayında olan qardaş xalqların bir-birinə yaxınlaşmasına xidmət edəcəkdir.

Yuxarıda qeyd olunanlar Ulu Öndərimizin Naxçıvanda həyata keçirdiyi böyük işlərin az bir hissəsidir. Çox təbii ki, bu böyük fəaliyyəti bir qəzet yazısına sığdırmaq da mümkün deyil.

*Ardı Səh. 14*



Əvvəli səh.13

Seçdiyimiz bu hissələr Azərbaycanın müstəqilliyi, bu yolda aparılan mübarizə, ölkəmizin çətin vəziyyətdə olan bölgəsinin- Naxçıvanın ağır blokadası şəraitində həyata keçirilən işlərlə bağlı olduğu üçün onları xatırlamağı özümüzə borc bildik. Borc bildik ki, gənc nəsil də oxusun və öyrənsin. Bununla əlaqədar Prezident cənab İlham Əliyevin də dəyərli fikirlərini xatırlamaq yerinə düşər: "Naxçıvan strateji yerdə yerləşir, ölkəmizin təhlükəsizliyi, inkişafı üçün xüsusi rol oynayır. Naxçıvanın uğurlu inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər sovet dövründə də daim Naxçıvana böyük diqqət göstərmişdir və o vaxt respublikanın inkişafı üçün çox böyük işlər görülmüşdür. 1990-cı illərin əvvəllərində - Naxçıvan üçün ən ağır illərdə Ulu Öndər naxçıvanlılarla birlikdə burada çox ağır şəraitdə Naxçıvanı böyük bəlalardan qurtara bilmişdir. Biz hamımız o illəri yaxşı xatırlayırıq, bilirik ki, bizim mənfur düşmənlərimizin niyyəti, eyni zamanda, Naxçıvanı da işğal etməkdən ibarət idi. Naxçıvana qarşı onlar silahlı hücumlar təşkil edirdilər. Ancaq naxçıvanlılar Ulu Öndərin ətrafında sıx birləşərək düşmənə layiqli cavab verib onları yerinə oturtmuşlar".

## Heydər Əliyevə cəmiyyətdə inam çox yüksək səviyyədə idi

1990-cı illərin əvvəlində respublikada vəziyyət olduqca ağır idi-Azərbaycanda ictimai-siyasi proseslər idarəolunmaz forma alırdı. Hakimiyyətdə olan insanlar isə sanki xalqın maraqlarını unutmuşdular. Onların nəyə xidmət etdiklərini anlamaq mümkün deyildi. Xalqın müqəddəratı, istəyi, Vətənin təhlükəsizliyi onları maraqlandırmırdı. Həmin dövrdə xalq ağır vəziyyətə düşmüşdü və ən başlıcası mənəvi cəhətdən sarsılmışdı. Beləliklə, hakimiyyətə qarşı ümumxalq narazılığı yaranmışdı və insanlar mitinqlər, etiraz aksiyaları keçirməklə hakimiyyətə etirazlarını bildirirdilər. Ümumxalq narazılığı fonunda 1992-ci ildə respublikada hakimiyyətə gələn AXC-Müsavat cütlüyü dağıdıcı proseslərin qarşısını nəinki almadı, əksinə hərc-mərclik daha da artdı, Ermənistanın hərbi təcavüzü daha da sürətləndi. Çox qısa zamanda xalq AXC-Müsavat hakimiyyətinin idarəçiliyi bacarmadığının şahidi oldu. Bu hakimiyyətin faciəsi onda idi ki, bacarıqlı, peşəkar insanları da vəzifədən kənarlaşdırırdı. Beləliklə, o vaxtkı hakimiyyətin yarıtmaz siyasəti nəticəsində ölkəmiz uçuruma doğru sürüklənirdi, Azərbaycan məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı.

Azərbaycanda ümumi vəziyyətin nə qədər təhlükəli olduğunu cəmiyyətin sağlam qüvvələri, ziyalılar yaxşı dərk edirdilər. Bu insanlar anlayırdılar ki, Azərbaycanı belə bir ağır vəziyyətdən xalqımızın ləyaqətli oğlu Heydər Əliyev kimi böyük dövlət xadimi, bütün dünyada tanınmış bir şəxsiyyət xilas edə bilər. Amma o zamankı hakimiyyət Ümummilli Lider Heydər Əliyevin təcrübəsindən nəinki bəhrələnmək istəmirdi, əksinə ona qarşı əsassız mübarizə aparırdılar. Bütün bunlara rəğmən tanınmış ziyalılar Heydər Əliyevin hakimiyyətə qayıdışını olduqca zəruri hesab edirdilər. Respublikanın bütün əhalisi Ulu Öndərin hakimiyyətə gəlməsini istəyirdi. Amma hakimiyyət hər vəchlə buna mane olurdu. Yaş senzini ortaya atmışdılar ki, Heydər Əliyev seçkilərdə iştirak edə bilməsin. Lakin cəmiyyətdə Ulu Öndərə inam böyük idi. Bu səbəbdən də məhz Ona üz tutuldu.

## "91-lər" çox mühüm missiyanı həyata keçirdi

Belə olan təqdirdə, cəmiyyətin öndə gedən bir qrup ziyalısı 16 oktyabr 1992-ci ildə "Səs" qəzeti vasitəsilə Ulu Öndər Heydər Əliyevə müraciət etdi. "91-lər"-in fəaliyyəti kimi tariximizə düşən bu hadisə çox önəmlidir. Çünki bu ziyalılar görürdülər ki, ölkədə separatçılıq baş alıb gedir, qanunsuz silahlı dəstələr insanlar üçün böyük təhlükəyə çevrilir, əhalinin həyat səviyyəsi də sürətlə aşağı düşür. Yəni, sözün əsl mənasında Vətən əldən gedirdi. Belə bir şəraitdə 91 ziyalı Heydər Əliyevə yeni bir partiyanın yaradılması və həmin partiyaya rəhbərlik etməsi ilə bağlı müraciət etdi. Partiyanın yaradılmasında məqsəd demokratik yolla hakimiyyətə gəlib Vətəni xilas etmək idi. Bütün Azərbaycan xalqı görürdü ki, Heydər Əliyev Naxçıvanı məhv olmaqdan xilas etdi. Blokada şəraitində olan bir bölgədə insanlarla Heydər Əliyevin birliyi bütün çətinliklərə sinə gərdi. Bütövlükdə bütün xalqımız Heydər Əliyevi çox sevirdi. Çünki Ulu Öndərimiz bütün həyatı boyu xalqına şərəflə xidmət etmişdi. Beləliklə, o dövrdə "91-lər" çox mühüm missiyanı həyata keçirdi.

Azərbaycanın xilası üçün xalqın ziyalı nümayəndələri Ümummilli Liderimizi tək çıxış yolu olaraq görürdülər. Çünki ona inanır və böyük ümid bəsləyirdilər. Onun birinci dəfə Azərbaycanda hakimiyyətdə olduğu dövrdə gördüyü işlər, dövlətimizin başçısının da vurğuladığı kimi, həmin dövrdə Qarabağda separatist qüvvələrin baş qaldıra bilməməsi bu inamı daha da möhkəmlətmişdi. Dövlət başçısının dediyi kimi: Heydər Əliyevə cəmiyyətdə inam çox yüksək səviyyədə idi. Bu inamın əsas səbəbləri o idi ki, Azərbaycanda işlədiyi dövrdə o həmişə xalqa xidmət edirdi, həmişə xalqın qayğıları ilə yaşayırdı, həmişə xalqla birlikdə idi, bir yerdə idi. Məhz onun rəhbərliyi altında Azərbaycan 1970-80-ci illərin əvvəllərində sovet məkanında ən geridə qalmış respublikadan ən qabaqcıl respublikaların birinə çevrilmişdir və bütün statistik göstəricilər bunu təsdiqləyir. Eyni zamanda, Azərbaycanda yaşayan vətəndaşların həyat səviyyəsi ildən-ilə yaxşılaşırdı, xüsusilə kənd təsərrüfatı ilə məşğul olan insanlar öz həyatını yenidən qura bilmişdilər. Xalqımızın Heydər Əliyevə inamı, yenə də deyirəm, misilsiz idi. Xüsusilə xalqımızın 1980-ci illərdə üzləşdiyi faciə bir daha göstərirdi ki, xalqımız yalnız Heydər Əliyevi rəhbər vəzifədə görmək istəyir.

...Heydər Əliyev bütün vəzifələrdən istefa verəndən iki həftə keçmamiş erməni separatçıları artıq Qarabağın Azərbaycandan ayrılıb Ermənistana birləşməsi ilə bağlı məsələ qaldırmışdılar. Yəni, bu amillər göstərir ki, Ulu Öndər pensiyada olanda da, xalqımız üçün ən faciəvi günlərdə də xalqla birlikdə idi. 20 Yanvar faciəsinin ertəsi günü Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək sovet hökumətini, Kommunist Partiyasını - uzun illər xidmət etdiyi partiyanı ittiham etmişdir, bu dəhşətli cinayəti qınamışdır. Bütün bunlar və eyni zamanda, Naxçıvanda çalışdığı dövrdə müstəqilliyə doğru atılan addımlar, o cümlədən Azərbaycan Demokratik Respublikasının Dövlət Bayrağının Naxçıvanda rəsmi bayraq kimi təsis edilməsi və digər addımlar, həmçinin Naxçıvanın erməni işğalından qorunması xalqın ona inamını daha da artırırdı və bütün bu amillər nəticədə xalqımızın müdrikliyinə əsaslanaraq gələcəkdə Azərbaycanı böyük bəlalardan qurtara bilmişdir.

## Yeni Azərbaycan Partiyasının yaradılması Azərbaycanın xilası oldu

Ölkəmizin ictimai-siyasi həyatında mühüm əhəmiyyət kəsb edən Yeni Azərbaycan Partiyasının 2022-ci ildə 30 illik yubileyi münasibətilə keçirilən tədbirdə dövlətimizin başçısının çıxışında əvvəldən sonadək Heydər Əliyev siyasi xətti, ideyaları, yolu ilə getməklə əldə olunan uğurlardan bəhs etməsi ilə ötən illərin şanlı tarixinin səhifələri yenidən bir-bir vərəqləndi.

Ümummilli Liderimizin Azərbaycana, xalqımıza, onun müstəqilliyinə bəslədiyi məhəbbət fonunda ərazi bütövlüyümüzün bərpası, ölkəmizin inkişafı üçün həyata keçirdiyi misilsiz xidmətlər bu gün öz bəhrəsini verib. Bunu hər bir vətəndaş görür və qürur duyur. Partiyanın yaranması tarixinə nəzər salan dövlət başçısının çıxışında da bu məqamlar öz əksini tapdı: Partiyamızın yaranması tarixi hadisə idi. O vaxt gənc Azərbaycan Respublikası çətin günlər yaşayırdı. Müstəqilliyimizin cəmi bir yaşı var idi və müstəqilliyimizin birinci ili çox ağır keçmişdir, bəzi hallarda xalqımız böyük faciələrlə üzləşmişdir. Belə bir vəziyyətdə Azərbaycanın görkəmli nümayəndələri, vətənpərvər insanlar, ölkənin gələcəyini düşünən insanlar ölkəmizin nicat yolunu Heydər Əliyevin simasında görürdülər və məhz buna görə Ulu Öndərə müraciət ünvanlamışdılar. Bu müraciəti ünvanlayan məşhur "91-lər" öz tarixi missiyasını şərəflə yerinə yetirdilər. Çünki məhz bu müraciət əsasında, bu müraciətə cavab olaraq Yeni Azərbaycan Partiyasının təsis konfransı Naxçıvanda keçirilmişdir. Təsis konfransında ölkəmizin bütün bölgələrindən 500-dən çox nümayəndə iştirak edirdi və onların tarixi qərarları ölkəmizin yeni səhifəsinin açılmasına gətirib çıxardı.

Yeni Azərbaycan Partiyasının Naxçıvanda keçirilmiş birinci təsis konfransının tarixi hadisə adlandıran dövlətimizin başçısı deyirdi: Ulu Öndərin sədrliyi ilə keçirilmiş bu konfransdan sonra ölkəmizdə yeni siyasi qüvvə yaranmışdır. Yeni Azərbaycan Partiyası yarananda müxalifət partiyası kimi yaranmışdır və dövlətin ağır problemlərinin, yükünün bir hissəsini öz üzərinə götürmək böyük məsuliyyət tələb edən addım idi. Çünki o vaxt, bir daha demək istəyirəm, ölkədə gedən proseslər çox narahatedici idi və Azərbaycanın görkəmli nümayəndələrinin məhz Heydər Əliyevə müraciət etməsi bu zərurətdən doğurdu. Çünki ölkə artıq idarəolunmaz vəziyyətə düşmüşdü, bir il ərzində dövlətçiliyin əsasları qoyulmamışdı, demokratik inkişaf ləng gedirdi, əslində, geriyə addımlar atılırdı. Biz təkcə senzuranın tətbiq edilməsini yada salsaq, demək kifayətdir ki, o vaxt demokratik mühitdən söhbət gedə bilməzdi. Yeni Azərbaycan Partiyasının təsis konfransının məhz Naxçıvanda keçirilməsi də buna bağlı idi. O vaxt Bakıda bu konfransın keçirilməsinə icazə verilməmişdi. Yəni, demokratik dəyərlər elan olunsa da, Azərbaycan xalqı faktiki olaraq həyatda bunun əksini görürdü. Media azadlığı yox idi, iqtisadiyyat çox ağır vəziyyətdə idi, insanların sosial vəziyyəti gündən-günə ağırlaşırdı, yoxsulluq təxminən 90 faizə çatmışdı, sənaye istehsalı iflic vəziyyətdə idi. Bizim sənayemizin aparıcı sahəsi olan neft-qaz sənayesi də böyük tənəzzülə uğramışdı və faktiki olaraq ölkəmizdə elektrik enerjisi böhranı hökm sürürdü. Nizami ordu yaradılmamışdı, inflyasiya ikirəqəmlidən üçrəqəmliyə keçirdi. Yəni, budur 1992-ci ilin noyabr ayında ölkəmizdə yaranmış vəziyyət.




YAP-ın təsis konfransından yeddi ay keçəndən sonra Heydər Əliyevin xalqın tələbi ilə Bakıya dəvət edilməsi, parlamentin sədri seçilməsi, 11 ay keçəndən sonra - oktyabr ayında isə Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə tariximizin o qara səhifəsi bağlanmışdır. Və biz bağlanan o qara səhifədən sonra başlanan tariximizin parlaq səhifələri ilə bu gün fəxr edir, qürur duyuruq.

## Tarixin 1993-cü ildən açılan yeni səhifəsi

Bəli, 1993-cü ildən yuxarıda da vurğuladığımız kimi, tarixin qara səhifələri bağlandı və qarşımızda yeni bir səhifə açıldı. Bu səhifə Böyük Heydər Əliyevin dəst-xətti ilə yazılmağa başlandı. Elə bir səhifə ki, açılması ilə xalqın taleyini dəyişdi.

Ardı Səh. 15







Əvvəli Səh. 14

Ulu Öndərin mənəvi və siyasi varisi, daim Heydər Əliyev siyasətindən bəhrələnən və fəaliyyətini bu dahi insanın təcrübələrinə istinad etməklə quran dövlət başçısı cənab İlham Əliyev deyir: Biz Ulu Öndərin rəhbərliyi ilə çox ciddi iqtisadi islahatlara start verdik. İqtisadiyyatın bazar iqtisadiyyatı prinsipləri əsasında qurulması məhz o illərdə öz əksini tapmışdır. Azərbaycanın gələcəkdə dünyəvi dövlət kimi inkişafı məhz o illərdə təsbit edilmişdir. Bizim xarici siyasətimizlə milli maraqlar üzərində apardığımız işlər məhz o illərdə xalqa təqdim edilmiş və xalq tərəfindən dəstəklənmişdir. Bir çox başqa sahələrdə, o cümlədən ordu quruculuğu sahəsində atılan addımlar bir neçə ildən sonra imkan verdi ki, biz doğrudan da güclü və nizami ordu yaradaq. Bu gün bütün Azərbaycan xalqı Ordumuzla fəxr edir. Yəni, bu tarixi addımlar ölkəmizin uzunmüddətli strateji inkişaf modelini özündə ehtiva edirdi.

Əlbəttə ki, bütün planlarımızı həyata keçirmək üçün bizim güclü maliyyə imkanlarımız olmalı idi. Yaxşı başa düşürdük ki, xarici sərmayələr gəlmədən buna nail olmaq mümkün deyil. Xarici sərmayələrin ölkəyə qoyulması üçün də ilk növbədə sabitlik olmalı idi və bu sabitlik yaradıldı. O ölkədə ki, 1991-1993-cü illərdə Azərbaycan xalqı faktiki olaraq sabitlik nədir bilmirdi. Qanunsuz silahlı birləşmələr meydan oxuyurdu, Bakı və digər şəhərlərin küçələrində əli avtomatlı insanlar faktiki olaraq hökmranlıq edirdi, kütləvi itaətsizlik hökm sürürdü. Belə bir vəziyyətdə sabitliyi yaratmaq ancaq Heydər Əliyevin nüfuzu, onun cəsarəti və xalqın ona olan inamı hesabına mümkün idi və xarici sərmayələr də ondan sonra dərhal gəlməyə başlamışdır. Məşhur "Əsrin kontraktı" və neft-qaz sahəsində ondan sonra aparılan işlər o vaxt güclü maliyyə zəmini yaratdı. O vaxt atılan addımlar və qəbul edilmiş qərarlar bu gün bizə imkan verir ki, müstəqil iqtisadi siyasət aparaq və beynəlxalq müstəvidə müstəqil ölkə kimi özümüzü təsdiqləyək.

Bəli, ötən 20 ilin hər saatında, hər anında Ulu Öndərimizin tapşırıq və tövsiyələrinin yerinə yetirildiyi görürük. Həm də çox yüksək səviyyədə. Bu tapşırıq və tövsiyələrin yerinə yetirilməsində bütün cəmiyyətimizin səfərbər olduğunu da görmək mümkün olub. Çünki Ulu Öndər Azərbaycan üçün nə qədər əzizdirsə, onun tapşırıq və tövsiyələrinin bu xalqın nümayəndələri tərəfindən yerinə yetirilməsi bir o qədər qürurvericidir. Biz bütün işlərdə həmişə dövlətimizin başçısının arxasında olmuşuq.

Prezident cənab İlham Əliyev Yeni Azərbaycan Partiyasının 30 illik yubileyi münasibətilə keçirilən tədbirdə bu barədə deyirdi: Yəni, 1993-2003-cü illərdə dövlətçiliyimizin çox möhkəm əsasları qoyuldu. Bu illəri sabitlik və inkişaf illəri kimi xarakterizə etmək olar. Əsas məsələ odur ki, bu siyasət davam etdirilməli idi. Azərbaycan xalqı 2003-cü ildə bir daha müdriklik göstərərək, məhz Ulu Öndərin şəxsiyyətinə olan hörməti ifadə edərək Heydər Əliyev siyasətinə səs verdi. Mən 2003-cü ildə xalqa söz vermişdim ki, bu yoldan dönməyəcəyəm. Son 19 ilin hadisələri onu göstərir ki, belə də oldu, Ulu Öndərin bütün tapşırıqları, bütün tövsiyələri yerinə yetirildi. O, öz siyasi vəsiyyətində demişdir ki, bir çox işlər görüldü, ancaq görə bilmədiyimiz işləri mənim davamçılarım görəcək, belə də oldu. Biz onun siyasi xəttini davam və inkişaf etdirərək güclü Azərbaycan dövləti qurduq ki, sözün əsl mənasında, hər bir azərbaycanlı bu dövlətlə, doğma dövlətimizlə fəxr edir. Biz iqtisadi islahatları dərinləşdirdik və son 19 ildə bu sahədə görülən işlər göz qabağındadır. Təkcə onu demək kifayətdir ki, 2003-cü ildən bu günə qədər bizim iqtisadiyyatımız 3 dəfədən çox artmışdır. Bu il iqtisadiyyatımız rekord həddə çatacaq. İlin sonuna qədər gözlənilən proqnoz onu deyir ki, iqtisadiyyatımız 130 milyard manata çatacaq. Bu, rekord göstəricidir. Bizim uğurlu iqtisadi-maliyyə siyasətimiz nəticəsində xarici dövlət borcumuzu əhəmiyyətli dərəcədə aşağı sala bilmişik. Bu da həm bu gün üçün, həm gələcək nəsillər üçün böyük üstünlük təşkil edir. Bu gün ona görə ki, bizim kredit reytinqimiz yaxşılaşır. Gələcək nəsillər üçün ona görə ki, bu yük gələcək nəsillərin üzərinə düşməyəcək. Bir neçə il bundan əvvəl mənim göstərişimlə aparılan islahatlar nəticəsində bu ilin sonuna biz xarici borcumuzun ümumi daxili məhsuldakı payını 10 faizə qədər endirəcəyik. Əgər valyuta ehtiyatlarımızı götürsək, bizim valyuta ehtiyatlarımız xarici borcdan 8 dəfə çoxdur. Yəni, ancaq nadir ölkələr bu göstəricilərlə fəxr edə bilər.

## Azərbaycan dövləti Ulu Öndərin vəsiyyəti əsasında milli-mənəvi dəyərlər üzərində qurulur, inkişaf edir

Azərbaycan xalqının özünəməxsus milli dəyərləri vardır ki, bu xalq hansı dövrdən, çətinliklərdən, müharibələrdən, ağrı-acılardan keçməsinə baxmayaraq həmin dəyərlərə sadiq qalmış, onları qoruya-qoruya nəsillərdən-nəsillərə təhvil vermişdir. Onlardan biri də xalqın birliyi, həmrəyliyidir ki, 44 günlük Vətən müharibəsində də bunun şahidi olduq. Ulu Öndərimiz də bu dəyərlərin hər zaman qorunmalı olduğunu tövsiyə edirdi.

Prezident cənab İlham Əliyev: Azərbaycan dövləti Ulu Öndərin bizə etdiyi vəsiyyət əsasında milli-mənəvi dəyərlər üzərində qurulur, inkişaf edir. Azərbaycan dəyərləri bizim üçün əsas dəyərlərdir. Biz hamımız bunun şahidiyik ki, gənc nəsil də milli ruhda böyüyür, gənc nəsil milli ənənələrə sadiqdir, azərbaycançılıq ideyalarına sadiqdir. Azərbaycanda bütün xalqlar bir ailə kimi yaşayır, bu da Ulu Öndərin siyasəti idi. Biz bu siyasəti uğurla davam etdirərək, zənginləşdirərək bu gün Azərbaycanda, hesab edirəm ki, dünya miqyasında nadir və təkrarolunmaz mühit yaratdıq. İkinci Qarabağ müharibəsi bunu bir daha göstərdi. Azərbaycanda yaşayan bütün xalqların nümayəndələrinin hamısı bir nəfər kimi ölümə getməyə hazır idi, ölümə gedirdi, azad edilmiş torpaqlarda bayrağımızı qaldırırdı. Bu, bizim böyük üstünlüyümüzdür. Bu istiqamətdə həm ölkə daxilində, həm beynəlxalq müstəvidə bu gün Azərbaycan nümunəvi davranış göstərir. Əsas məsələ odur ki, bütün Azərbaycan xalqı tərəfindən, Azərbaycanda yaşayan bütün etnik qruplar tərəfindən bu siyasət dəstəklənir. Bu, bizim gücümüzü artırır və bundan sonra gələcək nəsillər də məhz belə yaşamalıdır, əminəm ki, belə yaşayacaqlar.

## Güclü ordu quruculuğu Ulu Öndərin vəsiyyəti idi

Bu, tarixi faktdır ki, 90-cı illərin əvvəllərində ordumuz yox dərəcəsində idi. Yəni ordu quruculuğu işini həmin dövrdə gündəmə gətirən də yox idi. Çünki ovaxtkı dövlət rəhbərlərinin başı öz vəzifə kürsülərini qoruyub saxlamağa qarışmışdı. Onlar ordu barədə nə üçün düşünməli idilər ki? Öz əlləri ilə düşmənə satdıqları torpaqları qorumaq üçünmü? Bu iki hal bir-biri ilə ziddiyyət təşkil etdiyinə görə bu barədə danışmağa da əsla dəyməz.

Lakin həmin dövrdə Naxçıvanda yaşayan və fəaliyyət göstərən dahi şəxsiyyət Heydər Əliyev üçrəngli dövlət bayrağımızı qaldırılması, dövlət rəmzlərimizin tanınması kimi, artıq orada ordu quruculuğuna da başlamışdı. Azərbaycan Milli Ordusunun təməli Ulu Öndər tərəfindən qoyulmuşdu. Sonrakı illərdə isə bu, daha da şaxələndirildi və bu sahədə həyata keçirilən bir-birindən əhəmiyyətli işlər bugünkü güclü ordumuzun yaradılması ilə nəticələndi.

Bu barədə dövlətimizin başçısı deyir: Güclü ordu quruculuğu. Bu da Ulu Öndərin bizə olan vəsiyyəti idi. Bu gün Azərbaycan Ordusu artıq özünü təsdiqləyib, cəmi 44 gün ərzində düşməni tarixi torpaqlarımızdan qovub, tarixi ədaləti bərpa edib, xalqımızın qürurunu bərpa edib və bu gün Azərbaycan dövlətinin təhlükəsizliyinin qarantıdır. Biz ordu quruculuğuna həmişə çox böyük diqqət göstərmişik. Bəzi işlər ictimai diqqətə də təqdim edilirdi, bəzi işləri biz daha çox konfidensial, yəni, məxfi şəraitdə aparırdıq, bu da başadüşüləndir. Amma nəticə etibarilə elə bir qəhrəmanlıq, elə bir peşəkarlıq göstərdik ki, bu, bu gün bir çoxları üçün nümunədir.

*Ardı Səh. 16*







Əvvəli Səh. 15

## Başa çatdıra bilmədiyimiz işləri davamçılarımız başa çatdıracaq

Bu barədə Prezident İlham Əliyevin dəyərli və yaddaqalan, bütün nəsillərə nümunə olan fikirlərini dinləmək kifayətdir: Heydər Əliyev öz siyasi vəsiyyətində bir şey də demişdir. Artıq bunu dəfələrlə demişəm, Azərbaycan xalqı da bilir ki, başa çatdıra bilmədiyimiz işləri davamçılarımız başa çatdıracaq. Onların arasında yəqin ki, mən belə hesab edirəm, ilk növbədə, Qarabağ probleminin həllini nəzərdə tuturdu. Biz, onun davamçıları bu problemi bütün işlərimizin mərkəzinə qoyduq. Yəni, hər bir addım, hər bir təşəbbüs, hər bir sərmayə, hər bir beynəlxalq təmas bu məqsədi güdürdü ki, bu, bizi müqəddəs hədəfimizə yaxınlaşdırır, yoxsa uzaqlaşdırır?! Ona görə bütün işlərimizin mahiyyəti məhz bu idi - Qarabağı azad etmək, tarixi ədaləti bərpa etmək. Biz bu hədəfə doğru gedirdik. Bizim yolumuz çox çəkdi. Ancaq elə gedib, elə nöqtə vurmalı idik ki, bu, birdəfəlik olsun. Biz avantüraya heç vaxt gedə bilməzdik. Biz səhv addım, yaxud da ki, vaxtsız addım ata bilməzdik. Biz hər şeyi ölçübbiçib öz gücümüzü, eyni zamanda, digər amilləri nəzərə alaraq ən düzgün vaxt seçməli idik, ən düzgün vaxt üçün ən yaxşı vəziyyətdə olmalı idik. Xalqımız Ordumuzla tam birləşdi. Ona görə biz hamımız deyirik ki, bu, ümumxalq Qələbəsidir. Çünki xalq-iqtidar bir yumruq kimi birləşdi və cəmi 44 gün ərzində biz istədiyimizə nail olduq, tarixi ədaləti bərpa etdik, düşməni torpaqlarımızdan qovduq. 8 noyabr 2020-ci il hamımızın yaddaşında əbədi qalacaq, o cümlədən mənim. O vaxt Ulu Öndərin məzarını ziyarət etdim, ondan sonra şəhidlərin qəbrini ziyarət etdim. Şəhidlər xiyabanında Azərbaycan xalqına Şuşa müjdəsini verdim. Ulu Öndərin məzarı önündə özümə dedim ki, bu vəsiyyət də, bu sonuncu vəsiyyət də yerinə yetirildi.



## Ulu Öndərin həyatı, fəaliyyəti bir fədakarlıq nümunəsi idi

Bəli, bütün həyatını, sağlamlığını xalqının xoşbəxtliyinə, müstəqilliyimizin əbədiliyinə, torpaqlarımızın azadlığına həsr edən böyük Heydər Əliyevin həyatı da, fəaliyyəti də bir fədakarlıq nümunəsi idi.

Yaxşı yadımdadır, 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində torpaqlarımızı satanlar isti otaqlarında boş-boş işlərlə məşğul olduqları zaman Ulu Öndərimiz qazsız, işıqsız Naxçıvanda buz kimi evdə yaşayır, Azərbaycanın gələcəyi üçün böyük əhəmiyyətə malik olan sənədlərə qaranlıq, soyuq iş otağında çıraq işığında imza atırdı. Saatlarla o soyuq otaqda bu xalqın qurtuluşu üçün yollar axtarıb tapırdı. Minilliklər boyu bir xalqın taleyində belə şəxsiyyətlər çox az halda olur. Biz çox xoşbəxt xalqıq ki, Ulu Öndər bizim tale payımız, alın yazımız olub. Biz bugünkü müasir, müstəqil Azərbaycan üçün Ulu Öndərimizə, onun ölməz ideyalarına borcluyuq. Dövlətimizin başçısının söylədiyi kimi: Ulu Öndərin həyatı, fəaliyyəti bir fədakarlıq nümunəsi idi. O, hətta özü üçün ən çətin dövrlərdə, artıq son illərdə fiziki sağlamlığı əvvəlki kimi olmadığı dövrdə də hər zaman hər birimizə nümunə göstərirdi. Hər birimiz, o cümlədən mən onun sağlığında da və yoxluğunda da onun kriteriyalarına uyğun hərəkət etməyə çalışırıq. Bu gün bizi qabağa aparan məhz budur - onun xatirəsinə hədsiz hörmət və onun mirasına olan münasibət. Onun mirası da bu gün müstəqil Azərbaycandır.

## Biz Ulu Öndərin yolu ilə gedirik

Prezident cənab İlham Əliyev: Ulu Öndərin yolu ilə gedərək biz, əlbəttə, bu gün dünyada baş verən dəyişiklikləri də çox diqqətlə yanaşırıq, ən mütərəqqi təcrübəni Azərbaycanda tətbiq edirik. Əminəm ki, növbəti illərdə bu sahədə istədiyimizə nail olacağıq.

Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində Azərbaycanda çox mürəkkəb iqtisadi, ictimai-siyasi vəziyyət hökm sürürdü. Bir tərəfdən də Ermənistan Azərbaycana qarşı ərazi iddiaları ilə ölkəmizə qarşı hərbi təcavüzə başlamışdı. Azərbaycanın ovaxtkı rəhbərliyinin səriştəsizliyi və xəyanətkarlığı, öz vəzifələrini qorumaq üçün sovet rəhbərliyinə yaltaqlanmaları qarşıda xalqı çətin anların gözlədiyindən xəbər verirdi. Sovet rəhbərliyinin bütün bunlardan istifadə etməklə ermənipərəst siyasətini aktivləşdirməsi qonşuluqda məqam gözləyən ermənilərə öz murdar niyyətlərini həyata keçirmək üçün əlverişli şərait yaradırdı.

Həmin vaxt ölkəmizin Ermənistanla sərhədboyu rayonları ermənilər tərəfindən mütəmadi olaraq atəşə tutulurdu. Eyni zamanda Naxçıvan Muxtar Respublikasına qarşı da ermənilər ərazi iddiası ortalığa atmış, kommunikasiyaları kəsməklə Naxçıvanı blokada vəziyyətinə salmışdılar.

Məhz belə bir vaxtda - 1990-cı ilin iyul ayında xalqımızın böyük oğlu Heydər Əliyevin doğulub böyüdüyü Naxçıvana gəlməsi muxtar respublikanı başı üzərini almış təhlükədən, bu qədim diyarı erməni işğalından, muxtariyyətini ləğv olunmaq təhlükəsindən xilas etməklə yanaşı, Azərbaycanın müstəqilliyi uğrunda azadlıq hərəkatının başlanması, Ulu Öndərin xalqın xilaskarı kimi milləti böyük bəlalardan qurtarması, müstəqilliyimizin qorunması, daimiliyi ilə nəticələndi.

"Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması və bu il Ulu Öndərin 100 illik yubileyinin Azərbaycanda dövlət səviyyəsində təntənəli şəkildə qeyd ediləcəyi dahi şəxsiyyətə böyük ehtiramın, yüksək qiymətin əyani göstəricisidir.

***Mətanət Məmmədova***

# Xilaskar və memar

**(1993-2003)**

**Azərbaycan 1991-ci ilin oktyabrında dövlət müstəqilliyini bərpa etsə də, müasir, müstəqil tariximiz 1993-cü ildən başlayır. Qarşıdakı on ildə - 1993-cü ildən 2003-cü ilə qədərki çətin və ağır, eyni zamanda məsuliyyətli dövrdə dövlətçiliyimizin əsasları qoyuldu. Məhz 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə gələn ulu öndər Heydər Əliyev rasional təfəkkürü və praqmatik fəaliyyət mexanizminin fonunda tətbiq etdiyi strategiya ilə Azərbaycanı dərin xaos və kəskin kataklizm meyillərindən xilas edərək yeni inkişaf yolunu açmış oldu.**



Ulu Öndər Heydər Əliyevin xalqımız, dövlətimiz və dövlətçiliyimiz üçün gördüyü işləri sadalayarkən 1993-2003-cü illərə xüsusi diqqət yetirmək lazımdır. Müxtəlif farmasiya və münasibətlər sistemində fəaliyyət göstərməsindən asılı olmayaraq Heydər Əliyevin amalında, gördüyü işlərin məğzində yalnız bir istək dayanıb - Azərbaycan milli dövlətçiliyini yaşatmaq və xalqa xidmət etmək. Moskvadan Azərbaycana, oradan isə Naxçıvana qayıtmağında Ulu Öndərin əsas məqsədi xalqı düşdüyü ağır durumdan, ölkəni isə üzləşdiyi çətin vəziyyətdən qurtarmaq idi. Təsadüfi deyil ki, Heydər Əliyevin adı Azərbaycan tarixinə həm də böyük xilaskar kimi düşüb.

XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. Ölkədə hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. Vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədəfə aldı. 1991-1993-cü illər ölkəmizin müasir tarixində hərcmərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xatırlanır. Bütün bunlar isə həmin dövrdə yeni yaradılmış müstəqil dövlətə liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslərin rəhbərlik etməsinə görə baş verirdi. Hadisələri düzgün qiymətləndirə bilməyən ovaxtkı iqtidar əhali arasında gündən-günə nüfuzunu itirir, baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi. Heydər Əliyev isə hələ Naxçıvanda olarkən dövlətçiliyin əsaslarının qurulmasında, möhkəm təməl üzərində dayanmasında lazımi addımları atırdı.

Ulu Öndərin bütün siyasi və dövlətçilik fəaliyyəti çağdaş Azərbaycanın, Azərbaycan xalqının, milli dövlətçiliyin inkişafı və möhkəmlənməsi tarixidir. Onun həyat və fəaliyyətinin xronologiyası böyük bir tarixi dövrün parlaq səhifəsini təşkil edir. Dünya siyasət meydanında cərəyan edən proseslərə təsir baxımından Azərbaycanın dahi rəhbəri dövlətimizi olduqca mürəkkəb zamanın dalğaları arasından salamat çıxarıb və dünyada layiqli yer qazandıra bildi.

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıtdığı 1993-cü ilin 15 iyunu Azərbaycanın yeni tarixini bütün mənalarda ikiyə böldü. Arxada total psixoz, dərəbəylik ”hakimiyyəti” və siyasi hikkələrin girovuna çevrilmiş Azərbaycan dövlətçiliyinin qaranlıq perspektivi, irəlidə isə sabitlik, inam, arxayınçılıq və Azərbaycan dövlətçiliyinin qurtuluşu vardı. Heydər Əliyevin Azərbaycanın rəhbərliyinə qayıtması tarixi zərurətin, sabitlik, qanunçuluq və ədalət intizarında olan milyonlarla insanın çağırışının gerçəkləşməsi idi.

”Mən Azərbaycanın müstəqilliyini Azərbaycan xalqı üçün böyük nailiyyət hesab etmişəm və bu müstəqilliyin əldə olunmasına xidmət etmişəm. Bundan sonra ömrümün qalan hissəsini də Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə, inkişaf etməsinə sərf edəcəyəm” - Heydər Əliyev hakimiyyətə bu sözlərlə qayıtmışdı və ömrünün sonunadək bu sözlərə sadiq qaldı.

Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi bu illəri təftiş etməyə çalışanlar çox olub, yəqin ki, beləlləri bundan sonra da tapılacaq. Bu təftişçilərin böyük əksəriyyəti 1993-cü ildə Azərbaycan dövlətçiliyini uçurumun kənarına gətirib, sonra kömək üçün Heydər Əliyevə müraciət edənlərdir. Amma tarix tarixdir və o kimlərinsə iddia və istəyinə görə yazılmır.

## 10 ilin qısa xronologiyası

1993-cü ildən sonrakı 10 ilə qısaca nəzər salsaq, bu illərin Azərbaycan xalqı və dövləti üçün həqiqətən böyük imtahan, sınaq epoxası olduğunu, ən əsası isə xalqımızın və dövlətimizin bu sınaqdan uğurla çıxdığını yəqin edə bilərik. Bu gün cəsarətlə demək olar ki, Ulu Öndər Heydər Əliyev 1993-2003-cü illərdə - prezident olduğu on il ərzində Azərbayvan dövlətinin mövcudluğunu təmin edən, onu inkişaf etdirən strategiyanı müəyyən etdi və gərgin əməyi sahəsində həyata keçirdi.

- 1994-cü ildən etibarən Qarabağ cəbhəsində atəşkəs rejiminə nail olmaqla iqtisadi inkişafın əsas prioritetlərinin formalaşdırılması;
- ölkənin həyatında çox zəruri olan ictimai-siyasi sabitləşmə, demokratik prinsiplərin və təsisatların yaradılması və təkmilləşdirilməsi;
- dövlət aparatının möhkəmləndirilməsi və iş qabiliyyətli dövlət idarəçilik təsisatlarının formalaşdırılması;
- cəmiyyətdə yeni davranış norma və stereotiplərinin yaradılması, yeni - açıq və demokratik vətəndaşlığın formalaşdırılması;
- müstəqil dövlətin neft strategiyasının yaradılması, bu strategiyanın əsası olan ”Əsrin müqaviləsi” sazişinin imzalanması, ölkənin əsas regional energetik aktora transformasiyasının başlanması;
- ”Böyük İpək Yolu” layihəsində fəal iştirak etməklə Azərbaycanın regional logistik mərkəz kimi rolunun dəyişməsi;
- həyat qabiliyyətli tarazlı xarici siyasət modelinin formalaşdırılması;
- müasir və döyüş qabiliyyətli ordunun yaradılması və s.




1994 - Mayın 12-də Ermənistan-Azərbaycan cəbhəsində ağır və üzücü müharibə dayandırıldı. Azərbaycan dövləti zəruri nəfəs dərmək, qüvvəsini toparlamaq və dövlətin sütunlarını möhkəmləndirmək imkanı qazandı. Atəşkəsin ilk müsbət nəticəsi özünü gözlətmədi.

Ardı Səh. 18

Əvvəli Səh. 17

## Yeni neft strategiyası

Sentyabrın 20-də Azərbaycanda təkcə neft sahəsinin deyil, bütövlükdə iqtisadi dirçəlişin təməlini qoyan ilk meqalayihə - "Əsrin müqaviləsi" imzalandı. Heydər Əliyevin tarixi uzaqgörənliyinin və cəsarətinin nəticəsi olan saziş Azərbaycanın milli neft strategiyasının başlanğıcı olmaqla yanaşı, Xəzərin milli sektorlara bölgüsü ilə bağlı ölkəmizin prinsipial mövqeyini nümayiş etdirdi. Bu isə çoxlarının ürəyincə deyildi.

Təsadüfi deyil ki, məhz "Əsrin müqaviləsi"ndən dərhal sonra Azərbaycanda növbəti dövlət çevrilişinə (3-4 oktyabr) cəhd edildi. Lakin qiyamın başında duran Surət Hüseynov və havadarları bu dəfə yanılmışdılar. Çünki artıq Azərbaycan dövlətinin sükanı arxasında mahir rəhbər - prezident Heydər Əliyev dayanmışdı.






Ulu öndər Azərbaycanın milli inkişaf doktrinasını hazırlamaqla respublikamızın uzunömürlü tərəqqisinə dərin əsaslar yaradıb. Müstəqil Azərbaycanın yüksək inkişaf mərhələsinə çıxmasında, milli-iqtisadi təhlükəsizliyinin möhkəmlənməsində və zəngin iqtisadiyyata malik olmasında neft amili xüsusi rol oynayır. Neft sərvətlərinin mənimsənilməsi, işlənilməsi və nəqli, ən əsası isə düzgün, düşünülmüş iqtisadi strategiyaya uyğun neft siyasətinin həyata keçirilməsi respublikamızın hazırkı tərəqqi mərhələsinə çatmasına dərin əsaslar yaradıb. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra neft sənayesində tamamilə yeni mərhələnin əsası qoyuldu. Bu dövrdə başlıca vəzifə müstəqil ölkənin neft sənayesinə xarici neft kompaniyalarını cəlb etmək və yeni nəql marşrutları yaratmaqdan ibarət idi.

1995 - Bu ili müstəqil Azərbaycan dövlətinin tarixinə sözün həqiqi mənasında dövlət quruculuğu və fundamental islahatların başlanğıcı kimi səciyyələndirmək olar. Amma bu proses heç də rəvan olmadı. Həmin ilin martında Azərbaycan dövlətçiliyi yenidən sınağa çəkildi - "OMON" qiyamı baş verdi. Heydər Əliyev 1995-ci il mart qiyamının qarşısını almaqla bütövlükdə Azərbaycanda hərbi çevriliş, zor gücünə hakimiyyətə gəlmək xülyasına birdəfəlik son qoydu.

Heydər Əliyevin rəhbərliyi altında aparılmış son dərəcə gərgin fəaliyyət nəticəsində Azərbaycan xalqının taleyi ilə pərdəarxası oyunlara, siyasi anarxiya və eksperimentlərə son qoyulmuş, ölkədə cinayətkarlığın qarşısı tam alınmış, bütün qanunsuz silahlı dəstələr ləğv olunmuşdu ki, bunlar da bütövlükdə Azərbaycanda dövlət quruculuğu prosesinin uğurla aparılmasıüçün şərait yaratmışdı. Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı Heydər Əliyevin qətiyyəti sayəsində alınmaqla, dövlət müstəqilliyi qorunub saxlanıldı. Məhz bundan sonra ölkəmizdə müstəqil dövlət təsisatlarının yaranması və dövlət quruculuğu prosesi böyük vüsət aldı. Bunun da əsasını müstəqil Azərbaycanın qəbul etdiyi ilk Konstitusiyası təşkil edirdi. Ondan sonrakı dövrdə Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi və demokratik prinsiplərin bərqərar olması, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla, sürətlə həyata keçirilməsi şəxsən Heydər Əliyevin adı ilə bağlıdır.

## Müstəqil Azərbaycanın ilk Konstitusiyası

1995-ci ildə qəbul olunmuş ilk Konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını qoymuşdur. Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçmişdir. Heydər Əliyevin birbaşa təşəbbüsü ilə hazırlanmış və ümumxalq səsverməsi nəticəsində qəbul olunmuş bu sənəd müstəqil Azərbaycanın ilk Konstitusiyası kimi tarixə düşüb. 1918-20-ci illərdə fəaliyyət göstərmiş Azərbaycan Xalq Cumhuriyyəti dövlətin Əsas Qanununu qəbul edə bilməmiş, SSRİ dağıldıqdan sonra müstəqilliyinin ilk dönəmində hakimiyyətdə təmsil olunan qüvvələr dövlətçiliyin əsasını təşkil edən bu sənədin hazırlanması və qəbul olunması istiqamətində heç bir əməli iş görməmişdir. Yalnız Heydər Əliyevin təşəbbüsü nəticəsində 1995-ci ilin may ayında müstəqil Azərbaycanın ilk Konstitusiyasını hazırlamaq üçün müvafiq komissiya təşkil edilmiş və dövlətçiliyin əsas atributlarından biri sayılan bu mühüm sənəd həmin ilin noyabr ayının 12-də ümumxalq səsverməsi ilə qəbul olunmuşdur. İnsan hüquqlarına xüsusi önəm verilən, hakimiyyətin ayrı-ayrı qanadları arasında qarşılıqlı əlaqənin səlis mexanizmi təsvir olunmuş Konstitusiya haqlı olaraq dünya müstəvisində nəzəri baxımdan ən mükəmməl hüquqi sənədlərindən biri hesab olunur.

1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar yaratdı. Və bu hadisə dövlət müstəqilliyinin prioritet istiqamətlərini müəyyənləşdirməyə və həyata keçirmək yolunda əsas istinad mənbəyi rolunu oynadı. Bununla da, Azərbaycanın dünya dövlətləri sırasında özünə layiq yer tutması, beynəlxalq münasibətlərin subyektinə çevrilməsi istiqamətində fəaliyyətin əsası qoyuldu.

## Azərbaycançılıq

Heydər Əliyev milli varlığımızın ideya təməli olan azərbaycançılıq haqqında belə demişdir: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə, mentalitetinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adətlərini yaşatmalıyıq".

1995-ci ildə Azərbaycanın yeni Konstitusiyasının hazırlanması və



qəbulu ərəfəsində Heydər Əliyev azərbaycançılıqla bağlı əvvəlki illərdə səsləndirdiyi fikirlərini bir qədər də inkişaf etdirərək, bu birləşdirici ideyaya tamamilə yeni bir hüquqi-siyasi və ideoloji məzmun verdi, onu tamamilə ölkənin milli-etnik xüsusiyyətlərinə və dünyanın müasir şəraitinə uyğunlaşdırdı.Azərbaycanın ən yeni tarixini yaradan Ulu Öndər doğma xalqı ilə sıx vəhdət təşkil edən, azərbaycanlı olmasından daim qürur duyan nadir şəxsiyyətlərdən biridir. Müstəqil dövlətimizin qurucusu və memarı olan bu əfsanəvi şəxsiyyət hər zaman böyük qürur hissi ilə "Mən həmişə fəxr etmişəm, bu gündə fəxr edirəm ki, mən azərbaycanlıyam!"- deyirdi. O, Azərbaycan xalqının yetirdiyi elə bir düha, öz əqli potensialı ilə dünyanı idarə etməyə qadir böyük şəxsiyyət idi.

***

1996 - Azərbaycanda dövlət quruculuğu və iqtisadi islahatlar prosesi dönməz xarakter aldı. İyunda Azərbaycanın əhəmiyyətinə görə ikinci böyük enerji layihəsi - "Şahdəniz" müqaviləsi imzalandı. 90-cı illərin əvvəlindən başlanan iqtisadi geriləmə və təsərüfat sahələrindəki tənəzzülün qarşısı alındı, ilk müsbət iqtisadi göstəricilər qeydə alınmağa başlandı.

Dekabrda ATƏT-in Lissabon (Portuqaliya) sammitində Qarabağ münaqişənin sülh yolu və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini zəruri sayan qərarın qəbul edilməsi ümumilikdə Qarabağ nizamlanmasının beynəlxalq-hüquqi prinsiplərini müəyyənləşdirmiş oldu. Ötən illər ərzində Azərbaycan tərəfi tənzimləmə prosesinin bu prinsiplərdən kənara çıxmasına imkan verməyib.

1997 - Azərbaycanda genişmiqyaslı iqtisadi inkişaf başlandı - özəlləşdirmə və aqrar islahatlara start verildi. Kəndli torpağın sahibinə çevrildi, illərlə qapısı bağlı olan sənaye müəssisələrinə sərmayə işığı yandırıldı. Ölkənin dünya iqtisadi sisteminə inteqrasiyası başlandı.

Oktyabr ayında "Əcrin müqaviləsi" çərçivəsində ilk neft çıxarıldı, bir ay sonra isə Azərbaycan neftini dünya bazarına daşıyan "Şimal kəməri" (Bakı-Hovorossiysk) işə düşdü. Prezident Heydər Əliyev Azərbaycanın neft strategiyasının başlıca konturunu - Bakı-Tbilisi-Ceyhan kəmərinin tikiləcəyini rəsmən bəyan etdi.

1998 - Aprel ayında "Qərb kəməri" (Bakı-Supsa) işə düşdü. Azərbaycanın xarici şirkətlərlə imzaladığı neft müqavilələrinin sayı 20-yə çatdı. Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv olması, dövlətin siyasi-hüquq sisteminin Avropa standartlarına uyğunlaşdırılması yönündə mühüm addımlar atıldı.

***

## Mətbuatın dostu

Dahi liderin ölçüyəgəlməz səyləri nəticəsində Azərbaycanda mətbuat orqanlarının azad fəaliyyəti və inkişafı yolunda süni manelərin aradan qaldırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, kütləvi informasiya vasitələrinin maddi-texniki təchizatının yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlər həyata keçirildi.

Ardı Səh. 19

Əvvəli Səh. 18

Vətəndaş cəmiyyəti quruculuğunu özünün inkişaf modeli kimi qəbul edən Azərbaycan Respublikası insan hüquqları, söz və mətbuat azadlığının təmin olunması ilə bağlı bir sıra beynəlxalq konvensiya və sazişlərə qoşuldu. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" 6 avqust 1998-ci il tarixli fərmanı KİV-in sərbəst inkişafı,cəmiyyətin dinamik şəkildə demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevrilməsi yolunda dövlət siyasətinin həyata keçirilməsində mühüm addım oldu. Bu fərmanla Nazirlər Kabineti yanında mətbuatda və digər kütləvi informasiya vasitələrində da Azərbaycan Avropa Şurasına rəsmi dəvət aldı. Ölkədə həm siyasi-hüquqi, həm də sosial-iqtisadi sahədə islahatların yeni mərhələsi başlandı. Demokratik, dünya standartlarına uyğun yeni məhkəmə sistemi yaradıldı, ölkənin qeyri-neft sektorunda böyük canlanma yarandı, xarici sərmayələrin iştirakı ilə böyük müəssisələr işə düşdü. Hoyabrda ikinci çağırış Milli Məclisə seçkilər keçirildi.

2001 - Yanvarın 25-də Azərbaycan Avropa Şurasına tamhüquqlu üzv qəbul olundu. Avropa Şurasında təmsilçilik Azərbaycanın beynəlxalq-diplomatik fəaliyyət imkanlarını genişləndirdi, ölkəmiz beynəlxalq miqyasda Qarabağ münaqişəsinə obyektiv münasibəti təmin etmək, Ermənistanın işğalçılıq siyasətini ifşa etmək üçün yeni müstəvi əldə etdi.





Dövlət Sirlərinin Mühafizəsi Başİdarəsi ləğv edildi, hərbi senzura yaradılması haqqında 16 aprel 1992-ci il tarixli fərman və bütün informasiya yayımıüzərində nəzarət tətbiq edilməsi ilə bağlı 15 aprel 1993-cü il tarixli sərəncam qüvvədən düşmüş hesab edildi. Həmçinin, 1998-ci ildə senzuranın ləğvi müstəqil mətbuatımızın ictimai fikrə təsir edən və "dördüncü hakimiyyət" funksiyasını həyata keçirən real gücə çevrildi. Məhz bundan sonra mətbuatımızın azad cəmiyyətin və demokratik ölkənin formalaşdırılmasında rolu ortaya çıxdı.

***

1999 - Heydər Əliyevin uzaq perspektivə hesablanmış uğurlu xarici siyasəti sayəsində ölkəmiz Şərq-Qərb münasibətlərinin təmas nöqtəsinə, "Böyük İpək Yolu"nun dirçəliş mərkəzinə çevrildi.

Hoyabrda Xəzər-Cənubi Qafqaz-Aralıq dənizi məkanında ən iri geoiqtisadi layihənin - Bakı-Tbilisi-Ceyhan kəmərinin tikintisi barədə böyük saziş imzalandı. Dekabrda Azərbaycanda tarixində ilk bələdiyyə seçkiləri keçirildi, ölkədə dünya təcrübəsinəəsaslanan yerli özünüidarə sisteminin təməli qoyuldu.

2000 - Azərbaycan Prezidentinin apardığı məqsədyönlü xarici siyasət bəhrəsini verdi. İyun ayın-

Sosial-iqtisadi sahədə inkişaf göstəriciləri daha da artdı, bu inkişafın gələcək təminatı olacaq Dövlət Heft Fondu fəaliyyətə başladı. Heft Fondunun ilk vəsaitləri hesabına məcburi köçkünlərin həyat şəraiti qismən yaxşılaşdırıldı, əməkhaqqı, təqaüd və müavinətlər artırıldı.

2002 - Azərbaycan ABŞ və Rusiya kimi iki dünya nəhənginin tamhüquqlu strateji tərəfdaşına çevrildi. Prezident Heydər Əliyevin Rusiyaya səfərləri zamanı (yanvar, iyun, sentyabr) iki ölkə arasında mühüm razılaşmalar - Qəbələ RLS-in statusu, Xəzərin dibinin bölünməsinə dair sazişlər imzalandı.

Dövlət başçısının may ayında İrana əhəmiyyətli səfəri cənub qonşumuzla münasibətləri daha da rəvanlaşdırdı. Heydər Əliyevin neft strategiyasın növbəti uğurunu yaşadıq - sentyabrın 18-də Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təntənəli təməlatma mərasimi keçirildi. Azərbaycan Prezidenti xəyalları gerçək etməyi bacaran lider olduğunu nümayiş etdirdi.

2003 - Heydər Əliyev prezidentliyinin 10-cu ilində Azərbaycan dövlətçiliyini rəvan və perspektivi aydın görünən inkişaf magistralına çıxardı. Ölkənin gələcək idarəçiliyini siyasi varisinə - özü qədər inandığı gənc liderə təhvil verdi. Azərbaycan xalqı böyük öndərin tarixi seçiminə dəstək verdi: 2003-cü ilin 15 oktyabr seçkiləri nəticə etibarilə Heydər Əliyev siyasətini Azərbaycanın dövlətçilik fəlsəfəsi kimi birmənalı şəkildə təsdiqlədi.

## Dünya Azərbaycanlılarının Lideri

Heydər Əliyevin yenilməz iradəsi, uzaqgörənliyi, fədakarlığı onu bütün dünya azərbaycanlılarının lideri edib, ömür yolu doğma Vətənə xidmət nümunəsinə çevrilib. Bütün şüurlu həyatını canından artıq sevdiyi xalqına, ölkəsinə həsr etmiş bu müdrik siyasi və dövlət xadimi tariximizdə müstəqilliyimizin memarı və qurucusu kimi yer tutub. Heydər Əliyev fenomeninə məxsus iti zəka, müdriklik, uzaqgörənlik və əzmkarlıq ona əvəzsiz Ümummilli Lider mövqeyi qazandırıb. Çoxşaxəli və zəngin fəaliyyəti, misilsiz insani keyfiyyətləri sayəsində o, zəmanəmizin əbədiyaşar dahisinə çevrilib. Azərbaycan xalqı haqlı olaraq Heydər Əliyev irsini müstəqilliyinin təminatçısı kimi qəbul edir. Qədirbilən xalqımız böyük xilaskarının xidmətlərini unutmur.

Ötən illər ərzində Azərbaycan böyük inkişaf yolu keçib. Ölkəmizin inkişaf strategiyası məhz Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilib. Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi Azərbaycandır. Qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Bu günün fövqündən baxanda Azərbaycanın gələcəyi daha işıqlı və firavan görünür. Çünki müstəqil Azərbaycanın idarəçilik sükanı Ulu Öndər Heydər Əliyevin siyasi varisi Prezident İlham Əliyevin əlindədir.

Prezident İlham Əliyevin bu siyasəti uğurla həyata keçirməsi nəticəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib, ötən dövr ərzində möhtəşəm iqtisadi uğurlara imza atılıb. Bunu təkcə Azərbaycan vətəndaşları deyil, bütün dünya təsdiq edir. Azərbaycana gələn hər bir şəxs ölkəmizdə gedən inkişafa heyran qalır. Bu gün xalqımız əmindir ki, müstəqil Azərbaycan Heydər Əliyev ideyaları işığında Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələr fəth edəcək.

2003-cü ilin 12 dekabrında Azərbaycan xalqı Heydər Əliyevi itirdi. Amma Heydər Əliyev yolu, Heydər Əliyevin ideyaları, onun təməlini qoyduğu dövlətçilik xətti və inkişaf strategiyası davam edir və yaşayır. Azərbaycan dövləti və xalqı bu yolun davamında ötən hər ili yeni uğurlarla başa vuracaq. 1993-cü ildə Azərbaycan xalqını rəzalətdən və qardaş qırğınından, Azərbaycan dövlətini iflas və parçalanmaq təhlükəsindən xilas edən Heydər Əliyev 10 il sonra bizə möhkəm özüllü, istiqrarlı, sabit inkişafı təmin edilmiş bir dövlət qoyub getdi.

**V.VƏLİYEV**

# Ən doğru seçim

## Heydər Əliyevin siyasi varisi Prezident İlham Əliyevin son 20 ildə həyata keçirdiyi islahatlar Azərbaycanı Cənubi Qafqazın lider dövlətinə çevirib

### 2003-2023











**Zəngin tarixə malik olan Azərbaycan xalqı müxtəlif zamanlarda çətin sınaqlara məruz qalmış və bu ağır, üzücü problemləri uzaqgörən, müdrik lideri vasitəsi ilə həll edib, aradan qaldıra bilmişdi. Ötən əsrin 90-cı illərin əvvəllərində Azərbaycan dövlət müstəqilliyini yenidən bərpa etsə də, səristəsiz, idarəetmədə bacarıqsız dövlət rəhbərlərinin səhv siyasət aparmaları səbəbindən dövlətçiliyini itirmək təhlükəsi ilə üzləşmişdir. Məhz belə ağır dövrdə xalqın çağırışına səs verən Ümummilli Lider Heydər Əliyev xilaskarlıq missiyasını öz üzərinə götürməklə dövləti və xalqı bəlalardan xilas edə bildi. Bu baxımdan xilaskar lider Heydər Əliyevin adı xalqın simvoluna, xeyirli, gərəkli fəaliyyəti isə hünər rəmzinə çevrilib. Millət Ona olan ehtiramını, sonsuz sevgisini Ümummilli Lider adını verməklə nümayiş etdirib.**

Ulu Öndər Heydər Əliyevin 1969-cu il iyulun 14-də Azərbaycanda birinci dəfə hakimiyyətə gəlişi respublikamızın dirçəliş dövrü kimi qeyd olunursa, xalqın səsinə səs verərək hakimiyyətə ikinci gəlişi Milli Qurtuluş günü olmuşdur. Əminliklə demək olar ki, bugünkü güclü, qüdrətli Azərbaycan dövləti Ulu Öndər Heydər Əliyevin şah əsəridir. Qurulan bu dövlətin sükanı arxasında Onun ən layiqli siyasi varisi, ölkə Prezidenti İlham Əliyevin olması Azərbaycana yeni-yeni uğurlar gətirməkdədir. Azərbaycan Prezidenti İlham Əliyevin hələ 2003-cü il prezident seçkiləri ərəfəsində söylədiyi "Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam, hər bir Azərbaycan vətəndaşının qayğı və problemlərinin həlli yolunda bütün bacarıq və qabiliyyətimi əsirgəməyəcəyəm" fikirləri son 20 ildə öz uğurlu nəticəsini bütün sahələrdə təsdiq etməkdədir.





### Azərbaycanı dünyanın iqtisadi mərkəzinə çevirən lider






Ölkəmizin sosial-iqtisadi sferada, elm, mədəniyyət, hərbi və siyasi sahələrdə mütərəqqi nailiyyətlər əldə etməsi onu deməyə əsas verir ki, Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin zəfər yolunu ləyaqətlə davam etdirir. 2003-cü il oktyabrın 1-də Dahi Öndər Heydər Əliyev xalqa müraciət edərkən demişdir: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".






Azərbaycan Prezidenti İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində ölkəmizdə makro-iqtisadi sabitlik qorunub saxlanılmış, iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sahələrinin, regionların inkişafı sürətlənmiş, strateji valyuta ehtiyatlarının səmərəli istifadəsi təmin olunmuşdur. Təkcə bir faktı qeyd etmək lazımdır ki, ötən 20 il ərzində Azərbaycanın valyuta ehtiyatları 40 dəfə artmışdır. İqtisadiyyatın diversifikasiyası ilə bağlı nəzərdə tutulmuş tədbirlərin sistemli və ardıcıl reallaşdırılması üçün dövlət başçısının müvafiq fərman və sərəncamları ilə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və bir sıra sahəvi inkişaf proqramları təsdiq edilmişdir.





*Ardı Səh. 21*














Əvvəli Səh. 20

Hazırda qəbul edilən dövlət proqramlarının bir qismi başa çatdırılmış, digərləri isə uğurla icra olunmaqdadır. Ölkə iqtisadiyyatına qoyulan investisiyanın həcmi də hər il artmaqdadır. Ötən 20 il ərzində Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa, Bakı-Novorossiysk neft və Bakı-Tbilisi-Ərzurum neft-qaz sektoruna 30 milyard ABŞ dollarından artıq sərmayə cəlb edilmiş, geniş ixrac infrastrukturu yaradılmış və ölkəmiz regionun ən mühüm tranzit mərkəzinə çevrilmişdir. Xarici investisiyanın ölkə iqtisadiyyatına cəlb edilməsi nəticəsində Dövlət Neft Fondunun valyuta ehtiyatları dəfələrlə artmışdır. Təbii ki, maliyyə daxil olunmaları müxtəlif sosialyönümlü layihələrin icrasına, əhalinin sosial vəziyyətlərinin yaxşılaşmasına, yeni iş yerlərinin artmasına xidmət edir. Beynəlxalq maliyyə fondlarının gəldikləri qənaətə və açıqladıqları illik hesabatlara görə, Azərbaycan dünyada ən sürətli templərlə inkişaf edən dövlətdir. Azərbaycanın iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə, qeyri-neft ixracı 4,1 dəfə artıb. Azərbaycanın valyuta ehtiyatları 1,8 milyard dollardan 46 milyard dollara çatdırılıb. Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə dünya miqyasında 35-ci, ümumi infrastrukturun inkişafına görə isə 26-cı yerdə qərarlaşıb. Davos İqtisadi Forumunun açıqladığı hesabata görə, "İnklüziv inkişaf indeksi" adlı illik hesabatında Azərbaycan inkişaf etməkdə olan 80 ölkə arasında 3-cü yerə yüksəlib.

Əldə olunan maliyyə imkanları qeyd edildiyi kimi, əhalinin sosial iqtisadi vəziyyətinin daha da yaxşılaşmasına cəlb edilib. Bu baxımdan, 2003-cü ildən keşmiş qaçqın və məcburi köçkünlərin problemlərinin həlli sahəsində genişmiqyaslı işlər görülmüş və qısa müddətdə ölkədəki bütün çadır düşərgələri, fin tipli qəsəbələr ləğv edildi, yeni salınmış 100-dən artıq qəsəbə və şəhərcikdə 265 min nəfər məskunlaşdırılmışdır. Son 20 ildə ölkədə minlərə məktəb binası tikilib və ya yenidən qurulub, geniş bazaya malik təhsil infrastrukturu yaradılıb, dörd mindən çox məktəb kompüter avadanlığı ilə təmin edilib.

Ölkədə səhiyyə islahatları da uğurla reallaşır. Bu gün təkcə paytaxtda deyil, bölgələrdə də müasir və ən qabaqcıl tibb avadanlığı ilə təchiz olunmuş müalicə-diaqnostika mərkəzləri, xəstəxanalar tikilib, mövcud səhiyyə ocaqları əsaslı şəkildə yenidən qurulub, bölgə sakinləri birbaşa yerlərdə müalicə olunmaq imkanı qazanıb.

Prezident İlham Əliyev şəhid ailələri, müharibə veteranları və əlillərinə daim xüsusi qayğı ilə yanaşır. Şəhid ailələrinə və müharibə əlillərinə dövlət hesabına 5500-dən çox fərdi ev və mənzil, 6 mindən çox minik maşını verilib. Şəhidlərin vərəsələrinin maddi vəziyyətinin yaxşılaşdırılması məqsədilə onlara dövlət tərəfindən 11 min manat vəsait verilməsi həyata keçirilib.

Prezident İlham Əliyev 19 oktyabr 2006-cı ildə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almasına dair Dövlət Proqramı haqqında Sərəncam imzaladı və həmin Sərəncamla müvafiq icra hakimiyyəti orqanlarına Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almalarına dair Dövlət Proqramını hazırlamağı tapşırdı. Buna uyğun olaraq o, 16 aprel 2007-ci ildə 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramını təstiq etdi. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası Prezident İlham Əliyevin ölkənin gələcək inkşafı məqsədilə göstərdiyi əsas strateji təşəbbüslərdəndir. Konsepsiya 2020-ci ilə qədər iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı və ictimai rifahın artırılması üçün tədbirlər və fəaliyyətlər nəzərdə tuturdu.

BMT-nin Dayanıqlı İnkşaf Məqsədlərinin tətbiqi haqqında Azərbaycanın könüllü məruzəsinin qiymətləndirilməsində Prezident İlham Əliyev tərəfindən təsdiqlənmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası uzunmüddətli milli istəkləri, sərmayəçilər üçün imkanları və bu məqsədlər barəsində əsas məsələləri əks etdirən strategiya kimi təsvir olunmuşdur.

Eyni yanaşma 2015-ci il Dünya İqtisadi Forumu üçün hazırlanmış və Xarici Siyasət jurnalında nəşr olunmuşdur. "The Business Year" jurnalı Prezident İlham Əliyev tərəfindən təşəbbüs edilən konsepsiyanı Azərbaycanın milli iqtisadi maraqlarını qorumaq məqsədilə hazırlanmış ağıllı strategiya kimi qiymətləndirdi. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası uğurla icra olunmuş və əminliklə demək olar ki, artıq qarşıya qoyulan bütün məqsədlər həll edilmişdir. Beynəlxalq təşkilatlarla və ayrı-ayrı ölkələrlə geniş və əhatəli əlaqələr quran Azərbaycan bununla dünyada ən etibarlı tərəfdaş ölkə olaraq tanınır və qəbul edilir. Məhz bu etibarın və inamın nəticəsi olaraq Azərbaycanın 2011-ci ildə 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmişdir. Ölkəmizin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına sədrlik etməsi dövlətimizin beynəlxalq miqyasda nüfuzunu və qüdrətini göstərir. Azərbaycanın Sədrliyi dövründə Qoşulmama Hərəkatı ən dinamik inkişaf dövrünü yaşamışdır.

*Ardı Səh. 22*

























Əvvəli Səh. 21

Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin və Gənclər Təşkilatının təsis olunması Azərbaycanın prinsipial fəaliyyətinin nəticəsidir. Ötən il iyunun 30-da keçirilən Bakı konfransında Prezident İlham Əliyev Parlament Şəbəkənin əhəmiyyətindən danışarkən demişdir: ”Azərbaycan parlamentinin səkkiz il ərzində sabiq bir üzvü olaraq, sizin sabiq həmkarınız olaraq mən parlament diplomatiyasının və parlamentlərarası münasibətlərin necə əhəmiyyət kəsb etdiyini yaxşı bilirəm. Əminəm ki, parlament şəbəkəmiz təkcə ölkələrimiz arasında həmrəyliyə töhfə verməyəcək, eyni zamanda, dünyanın müxtəlif parlament təşkilatları ilə sıx iş münasibətləri quracaq”.

Ötən ilin iyulun 25-29-da Azərbaycanda keçirilən Qoşulmama Hərəkatı Gənclər Sammiti çərçivəsində Hərəkatın 61 illik tarixində ilk dəfə olaraq Şuşada Qoşulmama Hərəkatına üzv ölkələrin gənclərini birləşdirən Gənclər Təşkilatı yaradıldı. Təşkilatın dünya gənclərinə müraciəti beynəlxalq aləmdə böyük rəğbətlə qarşılanmışdır.

## Azərbaycan dünyada idman ölkəsi kimi tanınır

Azərbaycanın və dünya azərbaycanlılarının Ümummilli Lideri Heydər Əliyev tarixi çıxışlarının birində demişdir: ”Heç bir fəaliyyət ölkəni dünyada idman qədər tanıda bilməz”. Bu ideyanı rəhbər tutan Prezident İlham Əliyev ötən müddətdə Azərbaycanı idman ölkəsinə çevirmişdir. Bütün şəhər və qəsəbələrdə, kənd və rayonlarda yeni idman qurğuları qurulur, yaxud yeniləri inşa edilir, idmançılar hərtərəfli qayğı ilə əhatə olunur ki, bu da beynəlxalq turnirlərdə daha böyük uğurlar əldə etməyə imkan verir. Digər tərəfdən isə, Azərbaycan tez-tez qitə və dünya miqyaslı idman yarışlarına ev sahibliyi edir. İlk Avropa Oyunlarının keçirilməsi Azərbaycana həvalə olunması ölkəmizə olan inam və etimadın bariz nümunəsidir. Azərbaycan 42-ci Dünya Şahmat Olimpiadasına, qadınlar arasında voleybol üzrə Avropa çempionatına, IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etdi. Bakıda artıq 7-ci ildir ki, dünyanın ən nüfuzlu idman yarışlarından olan Formula-1 Avropa Qran-Prisi keçirilir. Azərbaycan Rio Yay Olimpiya Oyunlarında böyük zəfərə imza atdı. Tarixdə ilk dəfə hesabına 18 medal yazan milli komandamız medal sayına görə dünyada 14-cü, Avropa ölkələri arasında 7-ci, MDB respublikaları arasında 2-ci, müsəlman ölkələri arasında isə 1-ci yeri tutdu.

2022-ci ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edən Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev ötən ilin də hər il olduğu kimi, Azərbaycan idmanı üçün uğurlu il olduğunu demişdir: ”Bütövlükdə ölkə miqyasında görülmüş işlərə yüksək qiymət verməк olar. Çünki keçən ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr icra edildi, Azərbaycanın dinamik inkişafı təmin olundu. İdman da həyatımızın tərkib hissəsi olduğu üçün əlbəttə ki, ümumi tendensiya çərçivəsində inkişaf etmişdir. Bunu həm idmançılarımızın qələbələri göstərir, eyni zamanda, ölkəmizdə keçirilmiş müxtəlif beynəlxalq yarışlar Azərbaycanı bir daha idman ölkəsi kimi təsdiqləyir. Bütövlükdə son illərdə aparılan siyasət bu gün öz gözəl nəticələrini verməkdədir. Ötən ildə idman sahəsində böyük nailiyyətlər əldə olunub. İdmançılar beynəlxalq yarışlarda 800-dən çox medal qazanmışlar, onlardan 300-ə yaxını qızıl medaldır. Dünyada idman sahəsində rəqabət artır, yeni idman ölkələri meydana çıxır. Ona görə hər il bu yüksək nəticələri göstərmək, öz gücünü təsdiqləmək asan məsələ deyil. Dünya, Avropa çempionatlarında idmançılarımız ölkəmizi ləyaqətlə təmsil etmişlər. Beynəlxalq yarışlar arasında xüsusilə V İslam Həmrəyliyi Oyunları qeyd olunmalıdır. 5 il bundan əvvəl Bakıda keçirilmiş İslam Həmrəyliyi Oyunlarında Azərbaycan komanda hesabında birinci olmuşdur. Bu, tarixi qələbə idi və bu dəfə Türkiyənin Konya şəhərində 56 ölkə arasında idmançılarımız 99 medalla 4-cü yerə layiq görülmüşlər”.

## Ata vəsiyyətini yerinə yetirən Lider

2018-ci il oktyabrın 11-də keçirilən növbəti prezident seçkilərində Cənab İlham Əliyevin yenidən Prezident seçilməsi bir daha xalqımızın Ona inandığını, etimad və etibar etdiyini, daxili və xarici siyasətini dəstəklədiyini göstərir. Xalqın dəstəyi, ordunun qüdrəti, Müzəffər Ali Baş Komandanın Sərkərdəlik məharəti işğal altında qalan torpaqlarımızın azad edilməsini hədəflədi. Bir zaman ən adi silahları xaricdən alan Azərbaycan 2005-ci ildə yaradılmış Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin hesabına özü müasir silah və texnika istehsal etməyə başladı. Nazirliyin müəssisələrində 1200 adda hərbi təyinatlı məhsul istehsal edilir.

*Ardı Səh. 23*


























Əvvəli Səh. 22

Beynəlxalq reytinqlərə görə, Azərbaycanın Silahlı Qüvvələri hazırda dünyada ən güclü 50 ordu sırasında yer tutur.

Azərbaycan Ordusu öz gücünü və döyüş qabiliyyətini 2016-cı ilin aprelində həm düşmənə, həm də dünyaya nümayiş etdirdi. Azərbaycan tarixinə zəfər səhifələrindən biri kimi daxil olmuş Aprel döyüşlərində qəhrəman ordumuz Ermənistanın təxribatına cavab olaraq keçirdiyi əks-hücum əməliyyatı nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının ərazilərinin bir qismini, ümumilikdə 2 min hektardan çox torpağı işğalçılardan təmizləyərək böyük bir əraziyə nəzarəti ələ aldı. Bu döyüşlərin ən mühüm yekunu Lələtəpə yüksəkliyinin azad olunması və bununla da Cocuq Mərcanlının təhlükəsizliyinin təmin edilməsi oldu. 2018-ci ilin may ayında isə Naxçıvan Muxtar Respublikasının 11 min hektardan çox ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşməndən azad edildi, dövlət sərhədi boyunca əlverişli yüksəkliklər ələ keçirildi, İrəvan-Gorus-Laçın yolu nəzarətə götürüldü. 2020-ci ilin sentyabrın 27-dən başlayan Vətənin müdafiəsi, düşmənin yerində oturdularaq işğal altında olan torpaqların azad edilməsi uğrunda "Dəmir yumruq" əməliyyatı Azərbaycanın Şanlı Qələbəsi ilə başa çatdı. Müzəffər Ordumuzun 44 günlük savaşda 300-ə qədər kəndi, 5 şəhəri, 4 qəsəbəni, xeyli sayda strateji yüksəklikləri işğaldan azad etməsi noyabrın 10-da Azərbaycanın hərbi-siyasi Qələbəsinin və Ermənistanın kapitulyasiyasının təsdiqi olan Bəyanatın imzalanması ilə nəticələndi.

Yenilməz Sərkərdə, Prezident İlham Əliyevin Sərəncamı əsasında Qarabağın ürəyi Şuşanın işğaldan azad edildiyi gün - 8 noyabr Zəfər Günü kimi təsis olundu. Azərbaycan Prezidenti İlham Əliyev Şuşanın işğaldan azad edilməsi ilə bağlı xalqa müraciətində demişdir: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları! Mən bu günlərdə dünya azərbaycanlılarından və Azərbaycanda yaşayan insanlardan minlərlə məktub alıram. Hər gün minlərlə məktub. Sadəcə olaraq, heyifsilənirəm ki, bütün bu məktubları oxuya bilmirəm. Sadəcə olaraq, vaxt çatmır. Nə qədər gözəl sözlər, nə qədər böyük dəstək göstərilir. Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk!".

## İşğaldan azad edilmiş ərazilərə yeni həyat qayıdır

Bu gün işğaldan azad edilmiş torpaqlarımız rahat nəfəs alır. Keçmiş qaçqın və məcburi köçkünlər öz yurd-yuvalarına qayıdırlar. Hər yerdə quruculuq, abadlıq işləri həyata keçirilir. Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin başlayan Böyük Qayıdış davam edir. Zəngilan rayonunun Ağalı kəndinin sakinləri öz yurd-yuvalarına dönür. Ağalı kəndi ölkəmizdə ilk dəfə olaraq "Ağıllı kənd" konsepsiyasına uyğun olaraq tikilib və yüksək innovasiyalarla təchiz edilib. "Böyük Qayıdış" layihəsi çərçivəsində Zəngilan rayonunun Ağalı kəndinə ümumilikdə 86 ailə, 420 nəfər köçürülüb. "Ağalıya köçürülən sakinlərin hər biri işlə təmin olunur. Onlar dövlət qurumları və ayrı-ayrı təşkilatlarda çalışırlar.

"Böyük Qayıdış" layihəsi çərçivəsində işğaldan azad olunmuş ərazilərin yenidənqurulması və bərpası ilə bağlı xərclər hər il artmaqdadır. 3 il ərzində (2021-2023-cü illər) Qarabağ və Şərqi Zəngəzurunun bərpa və yenidənqurmasına yalnız dövlət büdcəsindən 7 milyard 870 milyon manat vəsait ayrılır. Bu, məhz Qarabağın daha qısa müddətdə bərpasına olan xüsusi diqqətdir. Eyni zamanda işağdan azad edilmiş ucqar kənd və qəsəbələrə belə yeni magistral avtomobil yolları salınır. Füzuli Beynəlxalq Hava Limanından sonra Zəngilan Beynəlxalq Hava Limanının açılışının olması, 2024-cü ildə Laçın Hava Limanının açılışının nəzərdə tutulması Qrabağda yeni həyatın qaynar və axarlı olacağını göstərir. Cari ilin oktyabrın 20-də Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Zəngilan Beynəlxalq Hava Limanının açılışı olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zəngilan Hava Limanının açılışının ölkəmizin həyatında çox əlamətdar hadisə olduğunu bildirmişdir. Qeyd etmişdir ki, Hava limanının açılışı Qarabağ və Şərqi Zəngəzur üçün çox önəmli hadisədir.

Bütün bunlara görə, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətə və bu siyasəti uğurla davam etdirərək ölkəmizə yeni-yeni qələbələr bəxş edən Prezident İlham Əliyevə minnətdarıq, təşəkkürlər edirik. İnanırıq ki, çox yaxın vaxtlarda Xankəndi-Laçın yolunun başlanğıcında qurulan sərhəd-keçid məntəqəsi düşərli olacaq və Xankəndidə, Ağdərədə, Xocalıda, Xocavənddə və digər ərazilərimizdə də üçrəngli bayrağımız dalğalanacaq.

*İ.ƏLİYEV*













# Heydər Əliyev ideyalarına sədaqət: *Vətənə və Xalqa xidmət*

## Mehriban xanım Əliyeva: "Bu gün Heydər Əliyev bizimlə olmasa da, Onun ideyaları yaşayır, niyyətləri həyata keçirilir"



Azərbaycan tarixinə müstəqil dövlət qurucusu kimi daxil olmuş Heydər Əliyevin xatirəsinə xalqımızın ehtiramını ifadə etmək arzusundan, onun zəngin mənəvi irsini əks etdirmək, azərbaycançılıq fəlsəfəsinin ölkəmiz üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən irəli gələrək yaradılmış Heydər Əliyev Fondu müxtəlif layihələr həyata keçirərək, cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir.Heydər Əliyev Fondunun prezidenti Azərbaycanın Birinci xanımı, Mehriban Əliyeva hər zaman xalqın yanında olan onun problem və qayğıları ilə maraqlanan və onların çözülməsinə çalışaraq həqiqətən də insanların ümid, pənah yeridir. Xeyirxahlıq, haqq-ədalət ünvanıdır. Ulu Öndər Heydər Əliyev ideyalarını davam etdirən Fondun şaxəli fəaliyyəti Azərbaycanın sosial, iqtisadi, mədəni həyatında əks-səda doğuraraq, birmənalı qəbul edilir. Mehriban Əliyeva Ulu Öndər Heydər Əliyev haqqında belə deyir: "O, Vətəninə, müstəqil, çiçəklənən, qüdrətli Azərbaycanda xoşbəxt görmək istədiyi xalqına olan sonsuz sevgisini hər şeydən üstün tuturdu. Bu gün Heydər Əliyev bizimlə olmasa da, onun ideyaları yaşayır, niyyətləri həyata keçirilir. Ən başlıcası onun müqəddəs arzusu reallaşıb".

Hər bir addımı böyük rəğbətlə qarşılanan Fondun humanitar missiyada fəaliyyət proqramlarının həyata keçirilməsi vətəndaşların qayğı və problemlərinin həllində müstəsnadır. Həyata keçirilən bütün layihələr vətəndaşların hərtərəfli qayğı ilə əhatələnməsi, sosial rifahının yüksəldilməsi məqsədini daşıyır. Uşaq bağçalarının, orta məktəblərin, səhiyyə müəssisələrinin təmir və inşası, eləcə də, əqli, fiziki cəhətdən zəif, qüsurlu olan uşaqlara, yaşlı və kimsəsiz insanlara maddi və mənəvi dayaq olması, şəkərli diabet, böyrək çatışmazlığından əziyyət çəkənlərə pulsuz və yüksək səviyyədə yardım və kömək göstərilməsi Heydər Əliyev Fondunun qısa bir zaman məsafəsində gördüyü işlərin uğuru olaraq qəbul edilir.

Xeyriyyəçilik və humanizm kimi dəyərlərdən yoğrulmuş fəaliyyət insanlığa, bəşəriyyətə xidmət etmək kimi ali bir dəyərə söykənir. İllərdir ki, yorulmaq bilmədən çalışan və böyük əhəmiyyət kəsb edən, müasir dünyamızın çağırışlarına cavab verən layihələri ilə milyonlarla insanın sevgisini qazanan Azərbaycanın Birinci xanımı Mehriban Əliyeva gördüyü işlərlə mənəvi rahatlıq tapır. Bu fəaliyyət özünün vurğuladığı kimi, sarsılmaz həqiqətlərə söykənir: "Əxlaq və mənəviyyat, insaniyyət və şəfqət, inam və məhəbbət, xeyirxahlıq və saf niyyətlər Yaradanın hər birimizə bəxş etdiyi ən gözəl keyfiyyətlərdir"- deyən Mehriban xanım Əliyeva valideynlərindən əxz etdiyi dəyərləri hər zaman üstün tutaraq, onların öyrətdikləri həqiqətə və mənəviyyata can atmağı özünün həyat məqsədinə çevirib: "Onlar öz varlığı ilə ləyaqət və şərəf hissinin hər şeydən üstün olduğunu aşıladılar. Öyrətdilər ki, alicənablıq və dürüstlük, mənəviyyat və şəfqət, xeyirxah əməllər, inam və məhəbbət - həqiqi xoşbəxtliyə və harmoniyaya aparan yoldur". Bəli, bu yol böyük bir yoldur. İnsanlığa aparan yoldur. Söhbət insan anlamından gedirsə, bu məfhumun arxasında dayanan amillər ən böyük dəyərlərə yol açır.

Azərbaycanda uşaqların sağlam və gümrah böyüməsi, onların Vətənə layiqli övlad kimi yetişməsi, mükəmməl təhsil almaları dövlətin daim diqqət mərkəzində saxladığı prioritet məsələlərdəndir. Azərbaycanın Birinci xanımı Mehriban Əliyeva uşaqların xoşbəxt gələcəyi üçün bütün imkanlardan istifadə edir, bu sahəni daim diqqət mərkəzində saxlayır. Heydər Əliyev Fondunun bu sahədə gördüyü işləri isə sadalamaqla qurtaran deyil. Valideyn himayəsindən məhrum olunmuş uşaqların rifah halının yaxşılaşdırılması, hüquqlarının qorunması, cəmiyyətdə hərtərəfli inkişafı, onlara yüksək səviyyədə səhiyyə xidmətlərinin göstərilməsi Heydər Əliyev Fondunun diqqətdə saxladığı ən vacib məsələlərdəndir. Fondun prezidentinin təşəbbüsü ilə hazırlanmış "Uşaq evləri və internat məktəblərinin inkişafı Proqramı" çərçivəsində xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil aldıqları onlarla internat məktəbi və uşaq evləri əsaslı təmir edilmiş, ən müasir avadanlıqlarla təchiz olunmuşdur. Hətta, kimsəsiz uşaqlara ev şəraitinə uyğun mühit yaradılmışdır. Gənc nəslin təhsili və sağlamlığının qorunması Heydər Əliyev Fondunun fəaliyyətinin prioritet istiqamətlərindən biri olduğundan Fond ölkədə həyata keçirilən təhsil və səhiyyə islahatlarında xüsusi fəallıq nümayiş etdirir. Heydər Əliyev Fondunun bu sahədə həyata keçirdiyi tədbirlər isə birbaşa genefondun qorunmasına, bu sahədə mövcud problemlərin əsaslı həllinə yönəlmişdir. Məktəbəqədər hazırlıq müəssisələrinin, uşaq bağçalarının müasir standartlar səviyyəsində qurulması, onların maddi-texniki bazasının gücləndirilməsi Heydər Əliyev Fondunun diqqət mərkəzindədir. "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində ölkəmizdə uşaq evi və internat məktəbi əsaslı təmir olunub və bu müəssisələrdə yaşayan uşaqların problemləri daim diqqətdə saxlanılıb. "Təhsilə dəstək", "Diabetli uşaqlara ən yüksək qayğı" kimi layihələri onun humanizm prinsiplərindən qaynaqlanır. Bütün bu reallıqlar Mehriban Əliyevanın bir qadın, ana, ictimai xadim kimi fəaliyyətində reallığa çevrilib.

### "AZƏRBAYCAN - TOLERANTLIĞIN ÜNVANI"

Milli-mənəvi dəyərlərin qorunması və dini ziyarətgahların yenidən qurulması prosesinə fəal surətdə qoşulan Heydər Əliyev Fondunun ölkəmizdə həyata keçirdiyi "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində ölkədə bir neçə dini ocağın təmiri və yenidən qurulması həyata keçirilmişdir. Fondun təşəbbüsü ilə Gəncədə Comərd Qəssab və Cavad xan türbələri yüksək səviyyədə bərpa edilmişdir.

*Ardı Səh. 25*







Əvvəli Səh. 24

Bu sırada paytaxtın Buzovna qəsəbəsində "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində əsaslı surətdə yenidən qurulan Cümə məscidi də xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan ərazisində, bütövlükdə Cənubi Qafqazda və Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən olan Şamaxı Cümə məscidində əsaslı təmir və yenidənqurma işləri aparılmış, Qəbələdə isə yeni məscid inşa olunmuşdur.Azərbaycanda bütün dövrlərdə, ictimai-siyasi quruluşdan asılı olmayaraq, müxtəlif dillərdə danışan, müxtəlif dinləri təmsil edən insanlar sülh, əmin-amanlıq və qarşılıqlı hörmət şəraitində bir ailə kimi yaşayıblar. Bu gün də belədir. Müasir dünyamızda çoxkonfessiyalı və çoxmillətli Azərbaycan bu ənənələrə sadiqdir və bu, ən böyük sərvətlərdən biridir. Təsadüfi deyildir ki, son illər mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa töhfələrini verir. Müasir dövrümüzdə Heydər Əliyev Fondu, nəinki Azərbaycanın, eləcə də, ümumdünya mədəni irsinin qorunmasına böyük əhəmiyyət verir. Fondun layihələrindən olan "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində Avropada Versal Sarayının memarlıq abidələrinin, kafedral kilsənin vitrajlarının bərpası Azərbaycanda tolerantlığın, dözümlülüyün, dünya mədəniyyətlərinin rəngarəngliyinə hörmətin qədim və möhkəm kökləri olduğunu özündə bir daha ehtiva edir. Azərbaycanın Birinci xanımı Mehriban Əliyeva Roma şəhərinin ətrafında yerləşən 60-a yaxın katakombaların bərpasında əhəmiyyətili işlərə imza atmışdır. Müqəddəs Marçellinio və Pietro katakombaları xristian aləmi üçün ən mühüm və ən maraqlı abidələrdən biridir və bu addım dinlər və mədəniyyətlərarası dialoqun daha bir parlaq nümunəsi olaraq tarixə yazıldı. Romanın belə nüfuzlu arxeoloji abidəsinin bərpasına töhfəsini verən Heydər Əliyev Fondu tarixi missiyasını həyata keçirmiş oldu. Heydər Əliyev Fondunun Fransanın Orn Departamentinin Santiyi, Fresnay o Sovaj, San-İler la Jerar, Tanvil, Kurjust, Revoyon və Mal yaşayış qəsəbələrində X-XII əsrlərə aid 7 kilsənin bərpasına yardım etməsi də "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində reallığa çevrilib.





## ÖMÜR BOYU MƏNİM HƏYAT AMALIM BELƏ OLMUŞDUR Kİ, ETMƏK İSTƏDİYİN YAXŞILIĞI HEÇ VƏCHLƏ GÖZƏ ÇARPDIRMAQ OLMAZ

Fəaliyyəti dövründə əldə etdiyi nailiyyətlər Fondun qeyri-hökumət təşkilatı olaraq həyata keçirdiyi layihələri ilə təkcə Azərbaycanda deyil, beynəlxalq aləmdə böyük nüfuz qazandığını göstərir. Gördüyü işlərində təvazökarlıq göstərir. Mehriban Əliyeva həqiqətən, gördüyü işlərlə kimliyini, böyüklüyünü bu dünyada gördüyü işlərlə reallaşdırır. Həyat və vəzifə missiyası bir etalon olaraq cəmiyyətə təqdim olunur. Bu təqdimatda Azərbaycan və onun inkişafı dayanır. Mehriban xanım Əliyeva isminə böyük bir məhəbbət və ehtiram hissi yaratmışdır. Öz varlığı ilə məmləkətinə şərəf gətirən Mehriban xanım Əliyeva Azərbaycan qadını, Azərbaycan İnsanı obrazını yaradıb. Azərbaycan haqqında olan təsəvvür, insan haqqında olan təsəvvür Onun layihələri əsasında tamam fərqli bir şəkildə meydana çıxıb. Bütün dünyaya müstəqil dövlətdə yaşayan qadın obrazının lazımi şəkildə təqdiminə nail olub.Qloballaşma prosesində Azərbaycan mədəniyyətinə xüsusi diqqət ayrılaraq, Azərbaycan mədəniyyətinin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlər də diqqətdən kənarda deyil.

*Ardı Səh. 26*













Əvvəli Səh. 25

Mehriban xanım Əliyevanın Azərbaycan mədəniyyətinin inkişafında, dünyada təbliğində əvəzsiz xidmətləri vardır. Azərbaycanın Birinci Xanımı ölkəmizdə müntəzəm olaraq keçirilən müxtəlif beynəlxalq mədəniyyət tədbirlərinin və festivallarının təşkilində mühüm rol oynayır. Beynəlxalq muğam festivalı və muğam ifaçılarının müsabiqəsi, M.Rastropoviç adına, eləcə də D.Şostakoviçin və Bülbülün yubileylərinə həsr edilmiş beynəlxalq festivallar, Qəbələ Musiqi Festivalı, Aşıqların Beynəlxalq Festivalı kimi tədbirlər, məhz Mehriban Əliyevanın yaxından dəstəyi ilə həyata keçirilib. Bakıda Beynəlxalq Muğam Teatrının, Müasir İncəsənət Muzeyinin binaları tikilib, açıq səma altında ”Qala” arxeoloji-etnoqrafik muzey kompleksi yaradılıb.Təbiətin gözəl bir çağında hər tərəfin yaşıl, al rəngə boyandığı vaxtda Heydər Əliyev Fondunun təşkilatçılığı ilə yenidən Şuşada Cıdır düzündə təşkil olunan ”Xarıbülbül” musiqi festivalı öz möhtəşəmliyi ilə dünyaya səs saldı.

Azərbaycan Prezidenti İlham Əliyevin ən yaxın silahdaşı olaraq Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan tarixində ilk dəfə olaraq Birinci xanım institutunu formalaşdırdı. Azərbaycan Prezidenti İlham Əliyevin Mehriban Əliyeva haqqında söylədiyi fikirləri vurğulamaq yerinə düşər: ”Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial bir insandır, eyni zamanda çox xeyirxah bir insandır və təsadüfi deyil ki, Azərbaycan xalqı ona çox böyük rəğbətlə, sevgi ilə yanaşır”. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ilin 27 sentyabrında başlanan 44 günlük Vətən müharibəsində biz Onun həqiqətən də Cənab Prezidentin silahdaşı olduğunun bir daha şahidinə çevrildik. Müharibədən sonrakı mərhələdə də Mehriban xanım Əliyevanın dövlət başçısı ilə birlikdə işğaldan azad olunan ərazilərə səfər etmişdir və bu gün də belədir. İşğaldan azad olunan ərazilərdəki erməni vandallıqları onu dəhşətə gətirmiş və sonradan öz paylaşımlarında bunu ictimaiyyətin diqqətinə çatdırmışdır.



Hər zaman öz paylaşımları ilə şəhid analarına təsəlli olan Mehriban Əliyeva rəsmi ”İnstaqram” səhifəsində Vətən müharibəsində şəhid olanların xatirəsinin yad edilməsilə bağlı etdiyi paylaşımda bildirib ki, Azərbaycan xalqının igid oğulları Zəfər naminə, Azərbaycanın gələcəyi naminə canlarından keçib: ”Onların hər biri əsl qəhrəman, rəşadət və qorxmazlıq nümunəsidir. Vətən naminə canından keçməyə hazır olan oğullar tərbiyə etmiş valideynlərin qarşısında baş əyirəm. Şəhidlərimizin qanı nahaq yerə tökülmədi - biz tarixi ədaləti bərpa etdik, müqəddəs Qələbə qazandıq. Bu Qələbə xalqımızın tarixinə əbədi həkk olundu! Hər birimiz bu Zəfərin nəyin bahasına qazanıldığını yadda saxlamağa borcluyuq!” Mehriban xanım Əliyeva da şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsinə, şəhid ailələrinin, qazilərin hərtərəfli qayğı ilə əhatə olunmasına xüsusi diqqət yetirir. Belə ki, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu bu istiqamətdə genişmiqyaslı tədbirlər həyata keçirib və bu davamlıdır.

## ÖRNƏYƏ ÇEVRİLMƏK BÖYÜK MƏSULİYYƏT VƏ ZƏHMƏTİN BƏHRƏSİDİR

Həqiqətən də səmimi hisslər, səmimi münasibət, səmimi görüşlər Mehriban xanım Əliyevanı insanlara daha da yaxınlaşdırır. Xalqın ən çətin və şad günündə onlarla fikirlərini paylaşan Mehriban Əliyevanın ”Sizin Mehriban” ifadəsi onunla isti münasibətin daha da sıx olmasına səbəb olub. İnsanlar onu doğması tək qəbul edir və ən çətin anlarında həqiqətən də ümid qapılarına üz tüturlar.”Vəzifədən asılı olmayaraq, insan öz yolunu, peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub, bu məqsədlərə nail olmağa çalışmalı, söz və işlərində bütöv olmalıdır”, - deyən Mehriban xanım Əliyeva gələcək fəaliyyətini, məhz bu prinsiplər əsasında quracağına əminlik ifadə etmişdir: ”Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam”. Həqiqətən də belə oldu. Mehriban xanım bütün fəaliyyəti dövründə xalqın maraqlarını əsas götürərək, ictimai, sosial layihələri ilə öz ətrafında böyük imic formalaşdırıb. 44 gün davam edən müharibədə Müzəffər Azərbaycan Ordusunun təcavüzkar Ermənistanı məğlub edərək, işğaldan azad etdiyi Vətən torpaqlarında bu gün həyata keçirilən tikinti-bərpa işlərində Mehriban xanım Əliyevanın da həyata keçidiyi layihələr töhfəsini verməkdədir. Böyük Qayıdışın möhtəşəm olacağına əminik və bu işdə Mehriban Əliyevanın payı müstəsna olacaqdır. Artıq bu işlərin ilkin addımlarını və reallaşan layihələri görürük. Heydər Əliyev Fondu məscidlərin təmirini öz üzərinə götürüb. Heydər Əliyev Fondunun dəstəyi ilə bürüncdən hazırlanan M.P. Vaqifin büstü öz əvvəlki yerinə qaytarılıb. Görülən işlər kifayət qədərdir. Damarlarında azərbaycanlı qanı qövr edən Böyük Ziyalının işığında Azərbaycanın hər bir bölgəsində əməyini, layihələrini görürük. Bu hər kəsi qürurlandırır.

İctimai-siyasi, mədəni həyatda aparıcı qüvvəyə çevrilmək, əməli fəaliyyətilə böyük nüfuza sahib olmaq, örnəyə çevrilmək böyük məsuliyyət və zəhmətin bəhrəsidir. Əlbəttə ki, vətənpərvərlik, vətənə bağlılıq insanı xalqı, milləti üçün böyük amallara xidmət etməyə sövq edir. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycanın ictimai-siyasi, mədəni həyatında müstəsna rola malik olması onun vətənə bağlılığından irəli gəlir. Müstəqil Azərbaycanda Ümummilli Lider Heydər Əliyev ideyalarını davam etdirən və mövcud prinsiplər və ənənə ilə fəaliyyət göstərən Heydər Əliyev Fondu genişmiqyaslı fəaliyyəti onu nəinki Azərbaycanda, hətta onun hüdudlarından kənarda belə əks-səda doğurub. Heydər Əliyev ideyalarını dəstəkləyərək, ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə fəaliyyətini davam etdirir.

***Nəzakət ƏLƏDDİNQIZI***







# Dünya siyasətçiləri Heydər Əliyev haqqında

Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən əsas şəxsiyyət olmuşdur. Amerika Birləşmiş Ştatları və Azərbaycanın bəhrələndiyi dostluq əlaqələrinin qurulmasında və Azərbaycanın müstəqilliyinin qorunmasında onun şəxsi səyləri həyati əhəmiyyət daşımışdır. Məhz onun rəhbərliyi altında Amerika Birləşmiş Ştatları və Azərbaycan, Əfqanıstan və İraqdakı əməliyyatlar da daxil olmaqla, terrorizmə qarşı mübarizədə tərəfdaş olmuşlar. Dağlıq Qarabağ faciəsinin sülh danışıqları vasitəsilə ədalətli və uzunmüddətli həllinə nail olmaq sahəsində onun nümayiş etdirdiyi qətiyyət regionda sülh və sabitliyin saxlanmasında mühüm əhəmiyyət kəsb etmişdir. Eyni zamanda, onun mövqeyi və göstərdiyi səylər Azərbaycanın iqtisadi inkişafını möhkəmləndirən böyük həcmli xarici sərmayələrin cəlb olunmasında əsas rol oynamışdır. Bu nailiyyətlər milyonlarla azərbaycanlının həyatını yaxşılaşdırmış və Azərbaycanın iyirmi birinci əsrə müasir dövlət kimi daxil olmasına imkan yaratmışdır.



***Corc BUŞ,***
***Amerika Birləşmiş Ştatlarının sabiq prezidenti***

Heydər Əliyev təkcə Azərbaycanın deyil, bütün türk dünyasının yetişdirmiş olduğu ən məşhur dövlət xadimlərindən biridir.

***Süleyman Dəmirəl,***
***Türkiyənin sabiq Prezidenti***

Bütün dünyada layiqli hörmət və böyük nüfuz qazanmış görkəmli dövlət xadimi həyatdan getmişdir. Uzun illər ərzində Heydər Əlirza oğlu Əliyevin səmərəli fəaliyyəti xalqlarımızın ümumi tarixi ilə bilavasitə bağlı olmuşdur. O, Rusiya və Azərbaycanın strateji tərəfdaşlığının təməlini qoymuş, dostluğumuzun və qarşılıqlı anlaşmamızın möhkəmlənməsinə böyük şəxsi töhfə vermişdir.

Onun vəfatı Müstəqil Dövlətlər Birliyi, bütün beynəlxalq birlik üçün əvəzsiz itkidir.

***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının prezidenti***

Mərhum Heydər Əliyev Azərbaycanın xoşbəxtliyi və firavanlığı, bölgədə və dünyada sülh naminə göstərdiyi fövqəladə xidmətlərlə türk və dünya tarixində şərəfli yer tutmuşdur.

***Rəcəb Tayyib ƏRDOĞAN,***
***Türkiyə Respublikasının Prezidenti***

Bu qeyri-adi şəxsiyyət Azərbaycanı çiçəklənmə yoluna gətirib çıxarmışdır. Müxtəlif görüşlərimiz zamanı, xüsusilə Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr apararkən, münaqişənin sülh yolu ilə həllində onun cəsarətini, müdrikliyini və qətiyyətini yüksək qiymətləndirdim.

***Jak ŞİRAK,***
***Fransa Respublikasının sabiq prezidenti***

Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı Onun qoyduğu irs ilə fəxr edə bilər. Onun Prezident kimi fəaliyyəti dövründə ölkələrimiz arasında münasibətlərdə tərəqqi yarandı və Azərbaycan Avropa ilə əlaqələrini daha da yaxınlaşdırdı. Onun 1998-ci ilin iyulunda Britaniyaya uğurlu səfəri, xüsusilə də, Dauninq küçəsi 10 ünvanında yerləşən iqamətgahımda bizim görüşümüz yaxşı yadımdadır. O, Azərbaycanla Birləşmiş Krallıq arasında hazırda mövcud olan güclü əlaqələrin təməlini qoydu. Fəxr edirik ki, Britaniya şirkətləri tərəfindən qoyulan böyük sərmayələr vasitəsilə Birləşmiş Krallıq Azərbaycanın gələcək tərəqqisinə töhfələr verir.

***Toni BLEYER,***
***Böyük Britaniyanın sabiq Baş naziri***

Mən Heydər Əliyevə böyük hörmət və ehtiram bəsləyirəm, onun siyasi fəaliyyətini və məharətini, uzaqgörənliyini yüksək qiymətləndirirəm.

***Butros Qali,***
***BMT-nin sabiq Baş katib***

Heydər Əlirza oğlu Azərbaycan Respublikası üçün, MDB-nin inkişafı üçün, Qazaxıstan və Azərbaycan xalqlarının çoxəsrlik dostluğunun möhkəmlənməsi üçün çox işlər görmüşdür.

***Nursultan NAZARBAYEV,***
***Qazaxıstan Respublikasının sabiq prezidenti***

Beynəlxalq aləmdə tanınmış siyasətçi, Çin Xalq Respublikasına dostluq münasibəti bəsləyən, Çin xalqının qədim dostu olan cənab Heydər Əliyev Çin-Azərbaycan dostluq münasibətlərinin inkişafında böyük rol oynamışdır.

***Xu SZİNTAO,***
***Çin Xalq Respublikasının sabiq Sədri***

Cənab Heydər Əliyevin regional sülh və dostluğa nail olunması, iki dost, qardaş ölkə olan İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin dərinləşdirilməsi yolunda xidmətləri heç vaxt xatirələrdən silinməyəcəkdir.

***Seyid Məhəmməd XATƏMİ,***
***İran İslam Respublikasının sabiq prezidenti***

Hörmətli siyasətçi və dövlət xadimi kimi Heydər Əliyevin adı və nüfuzu Azərbaycan Respublikasının beynəlxalq birlikdə qazandığı layiqli yerlə qırılmaz surətdə bağlı olacaqdır. Biz müasir beynəlxalq gerçəklik şəraitində Bolqarıstan-Azərbaycan dostluq münasibətlərinin inkişafına və möhkəmlənməsinə Heydər Əliyevin böyük şəxsi töhfəsini yüksək qiymətləndiririk.

***Georgi PIRVANOV,***
***Bolqarıstan Respublikasının sabiq prezidenti.***

Heydər Əliyevin simasında Azərbaycan Respublikası uzun illər ərzində ölkənin bütün həyatına dərindən nüfuz etmiş və Azərbaycanın tarixində əbədi yer tutmuş böyük dövlət xadimini itirmişdir. Onun adı ölkənin müstəqilliyinin bərqərar olmasında qazandığı tarixi nailiyyətlərlə daim bağlı olacaqdır.

***Gerhard ŞRÖDER,***
***Almaniya Federativ Respublikasının sabiq federal kansleri***

Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikası son illər dünya birliyində layiqli yer tutmuşdur. Azərbaycanda hüquqi dövlət quruculuğu, iqtisadi islahatların uğurla həyata keçirilməsi sahəsində görülən işləri diqqətlə izləyir və onları dəstəkləyirəm.

***II İohan Pavel,***
***Sabiq Roma papası***

Heydər Əliyev böyük şəxsiyyətdir. O, mənim dostum, qardaşımdır. Onun yeri həmişə ürəyimin başındadır.

***Butros-Butros Qali,***
***BMT-nin sabiq Baş katibi.***

Mən Azərbaycanı, Azərbaycan xalqını Heydər Əliyev qədər sevən ikinci adam tanımıram.

***Nikolay Baybakov,***
***Keçmiş SSRİ Dövlət Plan Komitəsinin sədri***

***N.Bayramova***














# Ulu Öndər haqqında nə bilirik?

*Azərbaycan Ulu Öndər Heydər Əliyevin uğurlu siyasəti sayəsində dünyada tanınan nüfuzlu bir dövlətə çevrilmişdir. 1990-cı illərdə Azərbaycan öz gərgin dövrünü yaşayırdı. Elə bu zaman, Heydər Əliyev hakimiyyətə gələrək ölkəmizi xilas etdi. Ulu öndər ölkədəki xaotik vəziyyətin qarşısını qəhrəmancasına aldı. Bildiyimiz kimi, 10 may ulu öndərimizin anadan olmasının 100 illik yubileyidir. Bu münasibətlə SİA olaraq uşaqlar arasında "Heydər Əliyev haqqında nə bilirsiniz?" mövzusunda sorğu etdik.*

**1-ci sinif şagirdi Şamxəlil Budaqov:** "Ulu öndər Heydər Əliyevin "Uşaqlar bizim sevincimiz, xoşbəxtli-



yimiz, cəmiyyətin gələcəyidir. Ona görə də hər bir insanpərvər cəmiyyətdə uşaqlara daimi xüsusi qayğı, xüsusi diqqət göstərilibdir"- müdrik kəlamı uşaqlara olan məhəbbətinin sübutudur. Anam həmişə deyir ki, ulu öndər uşaqları hər zaman çox sevib".

**6-cı sinif şagirdi Ömər Bağırzadə:** "Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanı və insanları daha xoşbəxt görmək istəyirdi.



Ümummilli lider dəfələrlə xatırladırdı: "İnsan üçün hər şeydən əvvəl onun vətənidir, torpağıdır. Bir çox əsrlər bu vətənin azadlığını, müstəqilliyini arzulamışıq. İndi buna nail olmuşuq və bunu əziz tutmalıyıq".

**5-ci sinif şagirdi Zəhra Sadıqzadə:** "Mən Heydər Əliyev kimi liderimiz olduğu üçün qürur duyuram. Düz-



dür, onu real olaraq heç görməmişəm. Amma böyüklərimiz haqqında daim gözəl sözlər deyib. Bir gün sonra ulu öndərimizin 100 illik yubileyi olacaq. Yaxşı ki, ölkəmizdə onun kimi liderin izləri var".

**6-cı sinif şagirdi Mahmud Cəlilov:** "100 illiyə çox az qalıb. Bu məqsədlə ölkədə silsilə tədbirlər keçirilir. Bu, çox müsbət haldır. Məktəbdə də bununla bağlı hər il



tədbirlər planlaşdırılır, uşaqlar ulu öndər haqqında öz fikirlərini söyləyirlər".

**5 yaşlı İbrahim Budaqov:** "Mən müəllim nəvəsiyəm. Ulu öndər "Müəllimlik sənəti şərəfli bir sənətdir" söyləyib. Babam illər öncə rəhmətə gedib. Mən onu heç görməmişəm belə. Amma onun haqqında düşündükdə həmişə Heydər Əli-



yevin müəllimlər haqqında söylədiyi gözəl kəlamları internetdən oxuyub fərəhlənirəm".

**4-cü sinif şagirdi İbrahim Bağırzadə:** "Anam müəllimdir. Heydər Əliyev haqqında mənə ən çox o danışıb. Anam həmişə deyir ki, ulu öndər müəllimlərə daim yüksək qiymət verib. Ulu öndər "Mən dünyada müəllimdən yüksək ad tanımıram" demişdir. Bu da ümummilli liderimizin müəllimlərə olan sevgi və hörmətindən irəli gəlir".



**11-ci sinif şagirdi Taleh Dəmirçiyev:** "Ulu Öndər 2003-cü ildə xalqa "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsə-



lələri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə ümidlər bəsləyirəm", demişdi. Bu gün artıq Qarabağ azaddır, Azərbaycanın mədəniyyət paytaxtı Şuşa azaddır. Qarabağı azad görmək Ulu Öndərin ən böyük arzusu idi. Prezident İlham Əliyev Ümummilli Liderimizin vəsiyyətini yerinə yetirərək Qarabağı 30 illik işğaldan azad etdi və yurd həsrətimizə son qoydu. İndi Ulu Öndərimizin ruhu şaddır. Onun hər zaman azad görmək istədiyi Qarabağda Azərbaycanın üçrəngli şanlı bayrağı dalğalanır".

**10-cu sinif şagirdi Səməd Səmədov:** "Yaxın zamanda Azərbaycanın



ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümüdür. Ulu Öndər Heydər Əliyev bütün dünyada böyük rəğbət və hörmət göstərilən görkəmli dövlət xadimi, dahi siyasətçi olub. Ulu öndərimiz həsəd aparılacaq bir ömür yaşayıb. Bu da hər insana qismət olmur. Birmənalı şəkildə deyə bilərik ki, Azərbaycanı Heydər Əliyev xilas etdi və bugünkü müstəqil dövlətimizin memarı məhz Heydər Əliyevdir".

**10-cu sinif şagirdi Kamran Məmmədov:** "Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi ilk vaxtlardan xalqının oxuyub elm, bilik



sahibi olmasına daim diqqət yetirmişdir. Çünki elmli, bilikli bir xalq işıqlı gələcəyə doğru inamla addımlaya bilərdi. O, "Təhsil millətin gələcəyidir",- deyərək gənclərin təhsilinə böyük önəm verib".

**5 yaşlı İsmayl Bağırzadə:** "Mən məktəbəqədər hazırlıq kurslarına gedirəm. Atam mənə Heydər Əliyev haqqında çox danışıb. Ulu öndəri görməmişəm, amma atam o qədər danışıb ki, çox yaxşı tanıyıram. Atam deyir ki, Heydər Əliyev daim uşaqlara böyük qayğı və diqqət göstərib, onların



ən böyük himayədarı olub. Mən də bir uşaq olaraq buna çox sevinirəm".

***Ayşən Vəli***

SORĞU

# BÖYÜK ÖMRÜN ANLARI

## (1923-2003)

Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olub. 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) memarlıq fakültəsinə daxil olmuş, lakin İkinci dünya müharibəsinin başlanması ilə əlaqədar təhsili yarımçıq qalmışdır.

***

Heydər Əliyev 1941-ci ildən Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında şöbə müdiri və Xalq Komissarları Sovetində məsul vəzifələrdə çalışmış, 1944-cü ildən isə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilmişdir. Leninqrad (indiki Sankt-Peterburq) və Moskva şəhərlərində xüsusi ali təhsil almış, 1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. Dövlət təhlükəsizliyi orqanlarında iyirmi beş il çalışan Heydər Əliyev 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədr müavini, 1967-ci ildən sədri vəzifələrində işləmiş və general-mayor rütbəsinə yüksəlmişdir.

***

Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikanın rəhbəri olmuşdur.

***

1976-cı ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin dekabrında isə Siyasi Büronun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmişdir. Bu vəzifədə işləyərkən Heydər Əliyev SSRİ-nin iqtisadi, sosial və mədəni həyatının ən mühüm sahələrinə rəhbərlik etmişdir.

***

Heydər Əliyev iyirmi il ərzində SSRİ və Azərbaycan SSR Ali Sovetlərinin deputatı olmuş və beş il SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışmışdır.

***

1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa vermişdir.

***



Heydər Əliyev 1990-cı il yanvarın 20-də sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciənin ertəsi günü Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir. SSRİ rəhbərliyinin ikiüzlü siyasəti nəticəsində Dağlıq Qarabağda yaranan kəskin münaqişə vəziyyətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir.

***

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikasının Ali Məclisinin sədr müavini vəzifələrində çalışmışdır. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir.

***

1993-cü ilin may-iyun aylarında hökumət böhranının son dərəcə kəskinləşməsi nəticəsində ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarananda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbini irəli sürdü və Azərbaycanın o dövrkü rəhbərliyi Heydər Əliyevi Bakıya dəvət etməli oldu.

***

Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçilmiş, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlamışdır.

***

Heydər Əliyev 1993-cü il oktyabrın 3-də keçirilən səsvermə nəticəsində Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

***

1998-ci il oktyabrın 11-də keçirilmiş seçkilərdə o, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Öz namizədliyinin növbəti prezident seçkilərində irəli sürülməsinə razılıq vermiş Heydər Əliyev səhhətində yaranmış problemlərlə bağlı 2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə iştirakdan imtina etmişdir.

***

Azərbaycanın ümummilli lideri Heydər Əliyev 2003-cü il dekabrın 12-də müalicə olunduğu Klivlend klinikasında (ABŞ) vəfat etmiş, dekabrın 15-də Bakıda Fəxri xiyabanda dəfn olunmuşdur.


HEYDƏR
ƏLİRZA OĞLU
ƏLİYEV


AZƏRBAYCAN
RESPUBLİKASI













SON SƏHİFƏ

SƏS
XÜSUSİ BURAXILIŞ
10 may
2023-cü il

# ATA vəsiyyətinə



# SADİQ OĞUL

*Baş redaktor:*
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ
CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL
YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi
ilə müəllifin mövqeyi
üst-üstə düşməyə bilər.

Qəzet bazar
və bazar ertəsindən
başqa hər gün
nəşr olunur

Tiraj: 4000